Azərbaycan Respublikasının
Biznes Mühiti və Beynəlxalq
Reytinqlər üzrə Komissiyası

# MEDİADA İŞIQLANDIRILMIŞ MATERİALLARIN HƏFTƏLİK MONİTORINQİ

**• 23 – 29 dekabr 2024-cü il •**

**“Əmtəə bazarının səmərəliliyi və rəqabət” İşçi qrupunun iclası**

**27.12.2024**

azertag.az

**Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın Əmtəə bazarının səmərəliliyi və rəqabət işçi qrupunun iclası keçirilib**



Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın Əmtəə bazarının səmərəliliyi və rəqabət işçi qrupunun 2024-cü il üzrə Yol Xəritəsinin hesabatının müzakirəsinə həsr olunmuş iclası keçirilib.

Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətindən AZƏRTAC-a bildirilib ki, iclas Dünya Bankı Qrupunun “Business Ready” layihəsinin “Bazar rəqabəti” indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair hesabatın müzakirəsi məqsədilə təşkil olunub.

İclasda Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın Katibliyinin rəhbəri, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin İqtisadi islahatların monitorinqi, koordinasiyası və qiymətləndirilməsi sektorunun müdiri Vüsal Şıxəliyev çıxış edərək, qarşıda duran əsas hədəflər barədə məlumat verib. Qeyd olunub ki, “Bazar rəqabəti” indikatoru rəqabət, dövlət satınalmaları və innovasiya sahələrini əhatə etməklə, müvafiq istiqamətlərdə inkişaf səviyyəsi və biznes mühitinin əlverişliliyinin qiymətləndirilməsini nəzərdə tutur.

Komissiyanın Əmtəə bazarının səmərəliliyi və rəqabət İşçi qrupunun rəhbəri, Antiinhisar və İstehlak Bazarına Nəzarət

“Əmtəə bazarının səmərəliliyi və rəqabət” işçi qrupunun 2024-cü il üçün Fəaliyyət Planı 27.03.2024-cü il tarixində təsdiq olunub

Dövlət Xidmətinin rəis müavini Cəfər Babayev 2024-cü il üzrə Yol xəritəsində nəzərdə tutulan tədbirlər və onların icra vəziyyəti barədə təqdimatla çıxış edib. Dövlət müəssisələrinin rəqabət qurumu tərəfindən qiymətləndirilməsi, rəqabət orqanı ilə əməkdaşlıq edən təşkilatlara güzəşt proqramlarının tətbiqi və birləşmələrə çoxfazalı nəzarət mexanizmləri ilə bağlı alt komponentlərin tələblərinin təmin edilməsi məqsədilə Rəqabət Məcəlləsinə dəyişiklik edilməsinə dair təkliflərin hazırlanmasının zəruriliyi vurğulanıb. Bundan əlavə, “Dövlət satınalmaları haqqında” Qanunun və Rəqabət Məcəlləsinin tətbiqinin biznes mühitinin inkişafına təsirləri diqqətə çatdırılıb.
İclasın yekununda 2025-ci il üzrə Yol Xəritəsinin tərtib edilməsi məqsədilə hazırlanmış diaqnostika sənədi təqdim olunub və bu sahədə iclas iştirakçılarının və işçi qrupun üzvlərinin təklifləri səsləndirilib. Növbəti il ərzində icrası planlaşdırılan Yol Xəritəsinin ekspert sorğularına verilən cavablar əsasında formalaşdırılması istiqamətində müzakirələr aparılıb və işçi qrupun üzvləri tərəfindən səsləndirilən suallar cavablandırılıb.

**Mənbə:**

https://azertag.az/xeber/biznes_muhiti_ve_beynelxalq_reytinqler_uzre_komissiyanin_emtee_bazarinin_semereliliyi_ve_reqabet_ischi_qrupunun_iclasi_kechirilib-3352375

## Digər saytlar və portallar

1. https://azranking.az/az/article/biznes-muhiti-ve-beynelxalq-reytinqler-uzre-komissiyanin-emtee-bazarinin-semereliliyi-ve-reqabet-isci-qrupunun-iclasi-kecirilib
2. https://www.competition.gov.az/az/post/955/biznes-muhiti-ve-beynelxalq-reytinqler-uzre-komissiyanin-emtee-bazarinin-semereliliyi-ve-reqabet-isci-qrupunun-iclasi-kecirilib
3. https://ritorika.az/biznes-muhiti-v%c9%99-beyn%c9%99lxalq-reytinql%c9%99r-uzr%c9%99-komissiyanin-emt%c9%99%c9%99-bazarinin-s%c9%99m%c9%99r%c9%99liliyi-v%c9%99-r%c9%99qab%c9%99t-isci-qrupunun-iclasi-kecirilib/
4. https://bbn.az/biznes-muhiti-v%c9%99-beyn%c9%99lxalq-reytinql%c9%99r-uzr%c9%99-komissiyanin-emt%c9%99%c9%99-bazarinin-s%c9%99m%c9%99r%c9%99liliyi-v%c9%99-r%c9%99qab%c9%99t-isci-qrupunun-iclasi-kecirilib/
5. https://ritor.az/gundem/6057-biznes-muhiti-v-beynlxalq-reytinqlr-uzr-komissiyanin-mt-bazarinin-smrliliyi-v-rqabt-isci-qrupunun-iclasi-kecirilib.html

**“Beynəlxalq ticarət” İşçi qrupunun iclası**

**27.12.2024**

apa.az

## "Ticarət informasiya portalı”nın gələn il fəaliyyətə başlaması planlaşdırılır




Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın “Beynəlxalq ticarət” işçi qrupunun video-konfrans formatında iclası keçirilib. “APA-Economics” xəbər verir ki, işçi qrupun rəhbəri, iqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyev, Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın Katibliyinin rəhbəri, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin İqtisadi islahatların monitorinqi, koordinasiyası və qiymətləndirilməsi sektorunun müdiri Vüsal Şıxəliyev və Sərhəddə ticarət üzrə dövlət xidmətlərinin səmərəliliyinin artırılması altqrupunun rəhbəri, Dövlət Gömrük Komitəsinin sədr müavini Natiq Şirinov, aidiyyəti dövlət qurumlarının və özəl sektor nümayəndələrinin iştirakı ilə keçirilən iclasda cari il ərzində görülmüş işlərə dair müzakirələr aparılıb.

İclasda Yol xəritəsində nəzərdə tutulan bəndlərin, “Business Ready” hesabatının “Beynəlxalq ticarət” indikatoru ilə bağlı İntensiv Kommunikasiya Planının icra vəziyyətinə dair təqdimatlar dinlənilib.

Həmçinin hazırda yaradılmaqda olan “ticarət informasiya portalı” barədə iclas iştirakçılarına məlumat verilib. Portalda beynəlxalq ticarət prosedurları və qaydalarına dair ardıcıl məlumatlar, xarici ölkələrin idxala dair tələbləri, gömrük

“Beynəlxalq ticarət” indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi 19.04.2024-cü tarixində təsdiq olunub.

prosedurları və digər məlumatlar öz əksini tapacaqdır. Portalın 2025-ci ilin 2-ci yarısında tam fəaliyyətə başlaması planlaşdırılır.
Daha sonra “B-Ready” sorğusunun növbəti il üzrə qiymətləndirməsinə dair məlumatlar və 2025-ci il üzrə Yol xəritəsinə daxil ediləcək tapşırıqlara dair müzakirələr aparılıb və müvafiq tövsiyələr verilib.

**Mənbə:**

https://apa.az/sahibkarliq/ticaret-informasiya-portalinin-gelen-il-fealiyyete-baslamasi-planlasdirilir-882448

### Digər saytlar və portallar

1. https://economy.gov.az/az/post/2452/beynelxalq-ticaret-isci-qrupunun-video-konfrans-formatinda-iclasi-kecirilib

“Beynəlxalq ticarət” indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi 19.04.2024-cü tarixində təsdiq olunub.

2. https://azertag.az/xeber/ticaret_informasiya_portali_gelen_ilin_ikinci_yarisinda_tam_fealiyyete_baslayacaq-3352383
3. https://xeberler.az/new/details/33645.htm
4. https://bbn.az/beyn%c9%99lxalq-ticar%c9%99t-isci-qrupunun-video-konfrans-formatinda-iclasi-kecirilib/
5. https://vergiler.az/news/economy/33102.html
6. https://www.tezadlar.az/index.php/en/iqtisadiyyat/33649-beyn-lxalq-ti-car-t-i-sci-qrupunun-vi-rtual-i-clasi-keci-ri-li-b.html
7. https://www.bayraqdar.info/2024/12/27/beyn%C9%99lxalq-ticar%C9%99t-isci-qrupunun-virtual-iclasi/
8. https://crossmedia.az/az/iqtisadiyyat/iqtisadiyyat1/beyn-lxalq-ticar-t-isci-qrupunun-iclasi-bas-tutub
9. https://sizinxeber.az/sahibkarlq/57579-ticart-informasiya-portalnn-gln-il-faliyyt-balamas-planladrlr.html
10. https://az.trend.az/business/3987416.html
11. https://ikisahil.az/post/564797-ticaret-informasiya-portalinin-gelen-il-fealiyyete-bashlamasi-planlashdirilir
12. https://upnews.az/business/ticar%c9%99t-informasiya-portali-2025-ci-ilin-ikinci-yarisinda-tam-f%c9%99aliyy%c9%99t%c9%99-baslayacaq/
13. https://fins.az/biznes/328599/ticaret-informasiya-portalinin-istifadeye-verileceyi-tarix-aciqlanib/
14. https://www.financetime.az/news/news-view.php?id=38183

**“Sərhəddə ticarət üzrə dövlət xidmətlərinin səmərəliliyinin artırılması” altqrupunun iclası**

**25.12.2024**

fed.az

**“Sərhəddə ticarət üzrə dövlət xidmətlərinin səmərəliliyinin artırılması” altqrupunun iclası keçirilib**




Biznes mühiti və Beynəlxalq reytinqlər üzrə Komissiyanın “Sərhəddə ticarət üzrə dövlət xidmətlərinin səmərəliliyinin artırılması” altqrupunun 2024-cü ilin yekunlarına həsr olunmuş hesabat xarakterli görüşü keçirilib.

Dövlət Gömrük Komitəsindən (DGK) FED.az-a bildirilib ki, təşkil olunan görüş zamanı Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın Katibliyinin rəhbəri Vüsal Şıxəliyev Dövlət Gömrük Komitəsinin rəhbərlik etdiyi “Sərhəddə ticarət üzrə dövlət xidmətlərinin səmərəliliyinin artırılması” altqrupunun fəaliyyət istiqamətləri barədə məlumat verərək, altqrupun 2024-cü il üçün Yol Xəritəsində öz əksini tapan tədbirlərin uğurlu icrasının ölkəmizin beynəlxalq reytinqlərdə irəliləməsinə töhvə verdiyini diqqətə çatdırıb.

Görüşdə cari il ərzində icra olunan tədbirlər müzakirə olunmaqla yanaşı, 2025-ci il üzrə qarşıda duran əsas prioritetlərlə bağlı fikir mübadiləsi aparılıb. Altqrupun rəhbəri, Dövlət Gömrük Komitəsi sədrinin müavini Natiq Şirinov 2024-cü il üzrə Yol Xəritəsində qeyd olunan tədbirlərin əksəriyyətinin uğurla icra olunduğunu və xarici ticarət fəaliyyəti ilə əlaqədar bir neçə mühüm məsələnin icrası istiqamətində nəzərəçarpan irəliləyişlər əldə edildiyini bildirib.

Sərhəddə ticarət üzrə dövlət xidmətlərinin səmərəliliyinin artırılması ilə bağlı 2024-cü il üçün Yol Xəritəsi 29.02.2024-cü il tarixində təsdiq olunub




Tədbirdə Yol Xəritəsinin müvafiq bəndlərinin icrası istiqamətində görülmüş işlərə dair məlumatlar verilib, altqrupun sentyabrın 24-də keçirilmiş görüşü zamanı qərara alınmış məsələlər və növbəti il üçün Yol Xəritəsinin formalaşdırılması ilə bağlı müzakirələr aparılıb.

Bildirilib ki, dövlət-biznes dialoqunun inkişaf etdirilməsi, xarici ticarət iştirakçıları üçün əlverişli münbit şəraitin yaradılması və xarici ticarət iştirakçıları tərəfindən qaldırılan məsələlərin operativ qaydada cavablandırılması dövlət orqanları ilə biznes subyektləri arasında əməkdaşlığın bariz nümunəsidir.

Daha sonra Dövlət Gömrük Komitəsinin tətbiq etdiyi süni intellekt əsaslı Avtomatlaşdırılmış Risk Analizi Sistemi (ARAS) layihəsinin 2024-cü ilin 11 ayının nəticələrinə dair təqdimat nümayiş etdirilib. Sonda qarşıya qoyulan hədəflərə nail olmaq məqsədilə tədbirlərin vaxtında və keyfiyyətli icrasının təmin edilməsinin vacibliyi diqqətə çatdırılıb.

Qeyd edək ki, komissiyanın “Beynəlxalq ticarət” işçi qrupunun “Sərhəddə ticarət üzrə dövlət xidmətlərinin səmərəliliyinin artırılması” altqrupuna Dövlət Gömrük Komitəsi rəhbərlik edir.

**Mənbə:**

https://fed.az/az/gomruk/serhedde-ticaret-uzre-dovlet-xidmetlerinin-semereliliyinin-artirilmasi-altqrupunun-iclasi-kecirilib-219127

**Digər saytlar və portallar**

1. https://customs.gov.az/az/faydali/xeberler/1676

Sərhəddə ticarət üzrə dövlət xidmətlərinin səmərəliliyinin artırılması ilə bağlı 2024-cü il üçün Yol Xəritəsi 29.02.2024-cü il tarixində təsdiq olunub

2. https://azertag.az/xeber/serhedde_ticaret_uzre_dovlet_xidmetlerinin_semereliliyinin_artirilmasi_altqrupunun_iclasi_kechirilib-3354187

3. https://ikisahil.az/post/565112
4. https://xalqqazeti.az/az/last-news/208844
5. https://avtosfer.az/az/oxucu-mektublari/serhedde-ticaret-uzre-dovlet-xidmetlerinin-semereliliyinin-artirilmasi-iclasi-kecirilib-foto-267304
6. https://naxcivanxeberleri.com/bloq/serhedde-ticaret-uzre-dovlet-xidmetlerinin-semereliliyinin-artirilmasi-altqrupunun-iclasi-kecirilib-59845
7. https://newscenter.az/2024/12/28/serhedde-ticaret-uzre-dovlet-xidmetlerinin-semereliliyinin-artirilmasi-altqrupunun-iclasi-kecirilib.html

## "Elektrik təchizatı şəbəkələrinə qoşulma" İşçi qrupunun iclası

**25.12.2024**

report.az

**Vüsal Şıxəliyev: "Elektrik şəbəkəsinə qoşulmadakı islahatlar beynəlxalq reytinqləri yaxşılaşdırıb"**



Azərbaycanda elektrik şəbəkəsinə qoşulma sahəsində aparılan islahatlar və yaradılan elektron xidmətlər biznes mühitinin əlverişliliyinin artırılmasına müsbət təsir etməklə yanaşı, müvafiq sahədə beynəlxalq reytinqlərin yaxşılaşmasına töhfə verib.

“Report” Energetika Nazirliyinə istinadən xəbər verir ki, bunu Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın nazirliyin rəhbərlik etdiyi "Elektrik təchizatı şəbəkələrinə qoşulma" işçi qrupunun videokonfrans formatında 2024-cü ilin yekunlarına həsr olunmuş hesabat xarakterli iclasında Komissiya Katibliyinin rəhbəri Vüsal Şıxəliyev bildirib.

Onun sözlərinə görə, bu sahədə əldə edilmiş nailiyyətlərin daha da gücləndirilməsi və yeni istiqamətlərdə təkmilləşmələrin davam etdirilməsi qarşıda duran əsas prioritetlərdəndir.

İşçi qrupunun rəhbəri, energetika nazirinin müavini Samir Vəliyev iclası açaraq gündəlikdə duran məsələləri təqdim edib, cari ildə müvafiq sahədə əldə edilmiş nailiyyətləri və qarşıda duran vəzifələrin səmərəli icrasının ölkəmizin beynəlxalq reytinqlərdə mövqeyinin gücləndirilməsi baxımından əhəmiyyətini vurğulayıb.

"Azərişıq" ASC sədrinin birinci müavini Ramil Yusifov isə elektrik təchizatı şəbəkəsinə qoşulma sahəsində icra edilmiş rəqəmsallaşdırma və optimallaşdırma tədbirləri haqqında

“Kommunal xidmətlər (elektrik)” indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi 14.03.2024-cü tarixində təsdiq olunub.

danışıb, növbəti ildə də bu səylərin genişləndiriləcəyini, eyni zamanda həm sahibkarlarla, həm də geniş ictimaiyyətlə müntəzəm kommunikasiyanın davam etdiriləcəyini qeyd edib.
İclasın gündəliyinə müvafiq olaraq, Dünya Bankının “Business Ready” hesabatının “Kommunal xidmətlər (elektrik)” indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi”ndə sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına hesablanmış tədbirlərin icra vəziyyəti barədə məlumat verilib. 2025-ci il üzrə Yol Xəritəsinin layihəsi müzakirəyə çıxarılıb, elektrik şəbəkəsinə qoşulma prosesinin daha da optimallaşdırılması məqsədilə nəzərdə tutulmuş tədbirlər iştirakçılar tərəfindən ətraflı təhlil edilib.
İntensiv Kommunikasiya Planının icrası istiqamətində elektrik şəbəkələrinə qoşulma prosesinin şəffaflığını təmin etmək və bu sahədə sahibkarların məlumatlılığını artırmaq məqsədilə reallaşdırılan tədbirlər nəzərdən keçirilib.
İclasda, həmçinin "Kommunal xidmətlər (elektrik)" indikatoru üzrə ekspert sorğularına verilən cavabların diaqnostika sənədi müzakirə edilib. Energetika, İqtisadiyyat, Rəqəmsal İnkişaf və Nəqliyyat nazirlikləri, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, “Azərnerji” ASC, "Azərişıq" ASC, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi və Enerji Məsələlərini Tənzimləmə Agentliyinin nümayəndələrinin iştirakı ilə keçirilən iclasda qarşıda duran tapşırıqların icrası ilə bağlı təklif və tövsiyələr qiymətləndirilib.

**Mənbə:**

https://report.az/energetika/vusal-sixeliyev-elektrik-sebekesine-qosulmada-islahatlar-beynelxalq-reytinqleri-yaxsilasdirib/

“Kommunal xidmətlər (elektrik)” indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi 14.03.2024-cü tarixində təsdiq olunub.

**Digər saytlar və portallar**

1. https://azertag.az/xeber/elektrik_sebekesine_qosulma_prosesinin_daha_da_optimallasdirilmasi_meselesi_tehlil_edilib-3350167
2. https://report.az/ru/energetika/vyusal-shihaliev-reformy-v-sfere-podklyucheniya-k-elektroseti-uluchshili-mezhdunarodnye-rejtingi-strany/
3. https://ikisahil.az/post/564468
4. https://newscenter.az/2024/12/27/elektrik-techizati-sebekelerine-qosulma-isci-qrupunun-novbeti-iclasi-kecirilib.html
5. https://xalqqazeti.az/az/last-news/208595

6. https://tezadlar.az/index.php/en/agenda/33619
7. https://cebheinfo.az/gundem/isci-qrupunun-novbeti-iclasi-kecirilib_991
8. https://525.az/news/283215-elektrik-sebekesine-qosulmadaki-islahatlar-beynelxalq-reytinqleri-yaxsilasdirib-vusal-sixeliyev
9. https://bbn.az/elektrik-t%c9%99chizati-s%c9%99b%c9%99k%c9%99l%c9%99rin%c9%99-qosulma-isci-qrupunun-novb%c9%99ti-iclasi-kecirilib-5/
10. https://respublika-news.az/az/news/1735271622-elektrik-techizati-sebekelerine-qosulma-isci-qrupunun-novbeti-iclasi-kecirilib
11. https://crossmedia.az/az/iqtisadiyyat/energetika/elektrik-t-chizati-s-b-k-l-rin-qosulma-isci-qrupunun-noevb-ti-iclasi-kecirilib
12. https://renewables.az/news/azerbaycanda-elektrik-sebekesine-qosulmadaki-islahatlar-beynelxalq-reytinqleri-yaxsilasdirib-2024-12-26-102929
13. https://atributinfo.az/iqtisadiyyat/39671-elektrik-bksin-qoulma-prosesinin-daha-da-optimalladrlmas-mslsi-thlil-edilib.html
14. https://ritorika.az/vusal-six%C9%99liyev-elektrik-s%C9%99b%C9%99k%C9%99sin%C9%99-qosulmadaki-islahatlar-beyn%C9%99lxalq-reytinql%C9%99ri-yaxsilasdirib/
15. https://far.az/16173-vusal-shixeliyev-elektrik-shebekesine-qoshulmadaki-islahatlar-beynelxalq-reytinqleri-yaxshilashdirib.html
16. https://sizinxeber.az/economy/energetika/57202-vsal-xliyev-elektrik-bksin-qoulmadak-islahatlar-beynlxalq-reytinqlri-yaxladrb.html
17. https://www.azerbaycan24.com/ru/vyusal-shihaliev-reformi-v-sfere-podklyucheniya-k-elektroseti-uluchshili-mezhdunarodnie-reytingi-strani/

“Kommunal xidmətlər (elektrik)” indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi 14.03.2024-cü tarixində təsdiq olunub.

**“Texnologiya və innovasiyalar” işçi qrupunun iclası**

**24.12.2024**

azertag.az

## “Texnologiya və innovasiyalar” işçi qrupunun 2025-ci il üzrə Fəaliyyət Planının layihəsi müzakirə olunub



Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyanın Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin rəhbərlik etdiyi “Texnologiya və innovasiyalar” işçi qrupunun növbəti iclası keçirilib. İclasda Komissiya Katibliyinin rəhbərliyi, işçi qrupun rəhbəri və üzvləri və özəl sektor nümayəndələri iştirak ediblər.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, iclasda “Texnologiya və innovasiyalar” işçi qrupunun 2025-ci il üzrə Fəaliyyət Planına daxil edilməsi üçün aidiyyəti qurumlar tərəfindən təklif edilmiş tədbirlər və həmin tədbirlərin Qlobal İnnovasiyalar İndeksinin alt-indikatorlarının nəticələrinə birbaşa müsbət təsir göstərə bilmə imkanlılığı və digər aidiyyəti məsələlər ətraflı müzakirə olunub.

İşçi qrupun rəhbəri, rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Samir Məmmədov çıxışı edərək, 2025-ci il üzrə Qlobal İnnovasiyalar İndeksində Azərbaycanın mövqeyinin yaxşılaşdırılması məqsədilə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və digər aidiyyəti qurumlar tərəfindən müvafiq tədbirlərin görüldüyünü qeyd edib.

Eyni zamanda, bildirib ki, “Texnologiya və innovasiyalar” işçi qrupunun üzvləri tərəfindən 2025-ci il üzrə Fəaliyyət Planına Qlobal İnnovasiyalar İndeksinin alt-indikatorlarına birbaşa müsbət təsir göstərən tədbirlərin əlavə edilməsi məqsədilə təkliflər təqdim olunub.

“Texnologiya və innovasiyalar” işçi qrupunun 2024-cü il üzrə Fəaliyyət Planı 08.04.2024-cü il tarixində təsdiq olunub

Samir Məmmədov sözügedən təkliflərin daha da konkretləşdirilməsi və ölçüləbilən olması üçün işçi qrupun üzvlərinə müvafiq tövsiyələrini və tapşırıqlarını verərək, qısa müddətdə təklifləri ümumiləşdirərək, işçi qrupun Katibliyinə təqdim edilməli olduğunu bildirib.

Komissiya Katibliyinin rəhbəri Vüsal Şıxəliyev ölkənin Qlobal İnnovasiya İndeksindəki göstəricilərinin yaxşılaşdırılmasında işçi qrupun fəaliyyətinin mühüm rol oynadığını qeyd edib. Həmçinin növbəti il üçün işçi qrupun Katibliyi tərəfindən İndeksin alt-indikatorlarının metodologiyasına uyğun olaraq tədbirlərin formalaşdırıldığını əlavə edib.

Bildirib ki, bugünkü iclasda əsas məqsəd nəticə əsaslı tədbirləri müəyyənləşdirərək, növbəti ilin Fəaliyyət Planını təkmilləşdirməkdir. Bu tədbirlərin icrası yekunda həm Qlobal İnnovasiya İndeksinə, həm də sahəvi göstəricilərə müsbət təsir etməlidir. Bundan əlavə, təqdim edilmiş təkliflər üzrə əsas keyfiyyət göstəricilərinin və icra müddətlərinin müəyyən edilməli olduğu vurğulanıb.

İclasda səsləndirilmiş fikirlər əsasında işçi qrup tərəfindən müvafiq təkliflər verilib və qərarlar qəbul edilib.

**Mənbə:**

“Texnologiya və innovasiyalar” işçi qrupunun 2024-cü il üzrə Fəaliyyət Planı 08.04.2024-cü il tarixində təsdiq olunub

https://azertag.az/xeber/texnologiya_ve_innovasiyalar_ischi_qrupunun_2025_ci_il_uzre_fealiyyet_planinin_layihesi_muzakire_olunub-3347771

## Digər saytlar və portallar

1. https://mincom.gov.az/az/media/xeberler/texnologiya-ve-innovasiyalar-isci-qrupunun-2025-ci-il-uzre-fealiyyet-planinin-layihesi-muzakire-olunub
2. https://qafqazinfo.az/news/detail/457088
3. https://xeberler.az/new/details/33622.htm
4. https://modern.az/tehsil/500333
5. https://az.trend.az/business/3986100.html
6. https://apa.az/ikt/texnologiya-ve-innovasiyalar-isci-qrupunun-2025-ci-il-uzre-fealiyyet-planinin-layihesi-muzakire-olunub-881933
7. https://www.azerbaijan-news.az/az/posts/detail/texnologiya-ve-innovasiyalar-isci-qrupunun-2025-ci-il-uzre-fealiyyet-planinin-layihesi-muzakire-olunubnbspnbsp-1735065303/348303
8. https://innews.media/az/news/id-40520
9. https://crossmedia.az/az/iqtisadiyyat/telekommunikasiya-ve-neqliyyat/texnologiya-v-innovasiyalar-isci-qrupunun-2025-ci-il-uezr-f-aliyy-t-planinin-layih-si-muezakir-olunub
10. https://1xeber.media/gundem/6095-texnologiya-ve-innovasiyalar-isci-qrupunun-2025-ci-il-uzre-fealiyyet-planinin-layihesi-muzakire-olunub.html

11. https://sizinxeber.az/ikt/56710-texnologiya-v-innovasiyalar-ii-qrupunun-2025-ci-il-zr-faliyyt-plannn-layihsi-mzakir-olunub.html
12. https://fhnews.az/news/details/ldquotexnologiya-va-innovasiyalarrdquo-isccedili-qrupunun-2025-ci-il-uumlzra-c87b2a
13. https://azturkxeber.az/iqtisadiyyat/2518-texnologiya-v-innovasiyalar-ii-qrupunun-2025-ci-il-zr-faliyyt-plannn-layihsi-mzakir-olunub.html
14. https://ictinfo.az/texnologiya-v%c9%99-innovasiyalar-isci-qrupunun-2025-ci-il-uzr%c9%99-f%c9%99aliyy%c9%99t-planinin-layih%c9%99si-muzakir%c9%99-olunub/


"Texnologiya və innovasiyalar" işçi qrupunun 2024-cü il üzrə Fəaliyyət Planı 08.04.2024-cü il tarixində təsdiq olunub

**“Fiziki infrastruktur” işçi qrupunun iclası**

**23.12.2024**

“Fiziki infrastruktur” işçi qrupunun 2024-cü il üçün Fəaliyyət Planı 05.02.2024-cü tarixində təsdiq olunub.

trend.az

**“Fiziki infrastruktur” İşçi qrupunun növbəti iclası keçirilib**




Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən rəhbərliyi həyata keçirilən “Fiziki infrastruktur” üzrə İşçi qrupunun növbəti iclası keçirilib. İclasda işçi qrupun üzvü olan dövlət qurumlarının və ictimai təşkilatların nümayəndələri iştirak ediblər.

Bildirilib ki, işçi qrupunun rəhbəri, rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Cavid Qurbanovun sədrliyi ilə keçirilən iclasda qrupun fəaliyyəti ilə bağlı cari məsələlərin müzakirəsi aparılıb.

İclasda ilk olaraq işçi qrupunun əvvəlki iclasının Protokolunda qərara alınmış tədbirlərin icra vəziyyəti barədə məlumat verilib. Belə ki, “Qlobal İnnovasiyalar İndeksi” hesabatında “Logistik performans” indeksinin hesablanma metodologiyasının dəyişdirilməsi barədə Dünya Bankı ilə müzakirələrin aparıldığı və yeni metodologiyaya uyğun olaraq “sorğu əsaslı yanaşmadan Big Data əsaslı yanaşmaya keçid”in

qəbul edildiyi bildirilib. İstifadə olunan böyük məlumat mənbələri olaraq Ümumdünya Poçt İttifaqı, “Cargo” İQ, “TradeLens”, “MDS Transmodal” və “MarineTraffic” kimi məlumat bazalarından istifadə ediləcəyi diqqətə çatdırılıb.

Sonra “Qlobal İnnovasiyalar İndeksi” hesabatında “Elektrik enerjisi istehsalı” indikatorunun 2022 və 2023-cü illər üzrə göstəricilərinin təhlil edildiyi və 2024-cü il üzrə proqnoz göstəricilərin Komissiyanın Katibliyinə təqdim edildiyi bildirilib.

Daha sonra Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin nümayəndəsi tərəfindən yol infrastrukturunun keyfiyyətinin yaxşılaşdırılması ilə bağlı xüsusilə yol nişanlarının quraşdırılması, yolların xətlənməsi, Bakı şəhərində mobilliyin artırılması istiqamətində görülən işlər haqqında məruzə edilib.

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin nümayəndəsi dəniz suyunun duzsuzlaşdırılması yolu ilə içməli su istehsalı sahəsində keçirilən pilot layihə, əhalinin dayanıqlı su təminatı məqsədilə Abşeron yarımadası ərazisində aparılan magistral su kəmərləri və həmin kəmərlər boyu mərkəzi su anbarlarının tikintisi, eləcə də su itkilərinin azaldılması məqsədilə məhəllədaxili və binadaxili su təchizatı sistemlərinin yenidən qurulması və məişət su sayğaclarının quraşdırılması barədə ətraflı məlumat verilib.

Təqdimatlardan sonra işçi qrupun üzvləri arasında müzakirələr aparılıb, rəy və təkliflər dinlənib, icra effektivliyinin daha da artırılması istiqamətində tövsiyələr verilib. Eyni zamanda növbəti ildə görüləcək işlər və işçi qrupunun 2025-ci il üçün Fəaliyyət Planının layihəsi müzakirə edilib.

Qeyd edək ki, Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyanın “Fiziki infrastruktur” üzrə işçi qrupuna rəhbərliyi Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi həyata keçirir.

“Fiziki infrastruktur” işçi qrupunun 2024-cü il üçün Fəaliyyət Planı 05.02.2024-cü tarixində təsdiq olunub.

**Mənbə:**

https://az.trend.az/business/3986050.html

**Digər saytlar və portallar**


1. https://mincom.gov.az/az/media/xeberler/fiziki-infrastruktur-isci-qrupunun-novbeti-iclasi-kecirilib
2. https://report.az/ikt/azerbaycan-dunya-banki-ile-logistik-performans-indeksinin-ferqli-hesablanmasini-muzakire-edir/
3. https://unikal.az/news/462450
4. https://modern.az/tehsil/500314
5. https://apa.az/ikt/fiziki-infrastruktur-isci-qrupunun-novbeti-iclasi-kecirilib-881920
6. https://azertag.az/xeber/fiziki_infrastruktur_uzre_ischi_qrupunun_iclasi_kechirilib-3347211
7. https://moderator.az/az/cemiyyet/836232/cavid-qurbanovun-sedrliyi-ile-fiziki-infrastruktur-isci-qrupunun-nvbeti-iclasi-kecirildi/
8. https://xeberler.az/new/details/33618.htm
9. https://yeniazerbaycan.com/xeberlenti_e115099_az.html
10. https://sizinxeber.az/ikt/56687-fiziki-infrastruktur-ii-qrupunun-nvbti-iclas-keirilib.html
11. https://crossmedia.az/az/iqtisadiyyat/telekommunikasiya-ve-neqliyyat/fiziki-infrastruktur-isci-qrupunun-noevb-ti-iclasi-kecirilib
12. https://naxcivanxeberleri.com/bloq/azerbaycan-dunya-banki-ile-logistik-performans-indeksinin-ferqli-hesablanmasini-muzakire-edir-59548
13. https://innews.media/az/news/id-40506
14. https://unikal.az/news/462450/cavid-qurbanovun-sedrliyi-ile-fiziki-infrastruktur-isci-qrupunun-novbeti-iclasi-kecirildi
15. https://iqtisadiyyat.az/az/post/azerbaycan-dunya-banki-ile-logistik-performans-indeksinin-ferqli-hesablanmasini-muzakire-edir-120871
16. https://operativmedia.az/public/post/73628/azerbaycan-dunya-banki-ile-logistik-performans-indeksinin-ferqli-hesablanmasini-muzakire-edir

**Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın fəaliyyəti**

**23.12.2024**

**azertag.az**

## “Caspian Energy Club”a üzv olan iri holdinqlərlə görüş keçirilib



“Caspian Energy Club” bu ilin iyun ayından etibarən Azərbaycan Respublikası Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın bütün işçi qruplarında fəal iştirak edir. Bu fəaliyyətin davamı olaraq, “Caspian Energy Club”ın təşkilatçılığı ilə Vüsal Şıxəliyevin iri holdinqlərlə dəyirmi masa formatında görüşü baş tutub.

AZƏRTAC xəbər verir ki, bu barədə “Caspian Energy Club”ın sədri və qrupun baş icraçı direktoru Telman Əliyev məlumat verib.

Dəyirmi masanın rəsmi açılış hissəsində “Caspian Energy Club”ın sədri və qrupun baş icraçı direktoru Telman Əliyev, eləcə də Prezident Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin sektor müdiri, Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın Katibliyinin rəhbəri Vüsal Şıxəliyev çıxış ediblər.

“Fərqli işçi qrupların çərçivəsində sahibkarların təkliflərini, suallarını və qarşılaşdıqları çətinlikləri toplayaraq müvafiq toplantılarda səsləndiririk. Sevindirici haldır ki, bir neçə ay öncə səsləndirilən təkliflər artıq müsbət nəticələr ilə özünü göstərib. Bu səbəbdən, Prezident Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin sektor müdiri, Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın Katibliyinin rəhbəri Vüsal Şıxəliyevin “Caspian Energy Club”a üzv olan iri holdinqlər və şirkət rəhbərləri ilə geniş görüş keçirməsi olduqca önəmli idi. Bu

Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiya Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 iyul tarixli 2199 nömrəli Sərəncamı ilə yaradılıb.

görüşdə Vüsal Şıxəliyev bizə Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın fəaliyyətinə dair ətraflı danışaraq bir neçə istiqamətdə həyata keçirilən islahatlarla bağlı məlumat təqdim etdi”, – deyə Telman Əliyev bildirib.
“Biznes mühitinin yaxşılaşdırılması üçün həyata keçirilən islahatlar Azərbaycanın beynəlxalq reytinqlərdəki mövqeyinin yüksəlməsinə dəstək verir. Bu kimi tədbirlər dövlət və biznes sektorlarının birgə inkişaf etməsi üçün əvəzolunmaz imkanlar təqdim edir”, - Telman Əliyev əlavə edib.
“Ölkənin biznes mühitinin inkişafını sürətləndirmək və dövlət-biznes əməkdaşlığını daha da gücləndirmək məqsədilə “Caspian Energy Club” tərəfindən dəyirmi masanın təşkil olunması böyük önəm kəsb edir”, - Vüsal Şıxəliyev bildirib.
Vüsal Şıxəliyev sahibkarlara müraciət edərək, onları Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın tərkibində fəaliyyət göstərən işçi qruplarında fəal iştirak etməyə dəvət edib. O, bir neçə misal gətirərək qeyd edib ki, bir sıra sahibkarlar və “Caspian Energy Club”ın üzvləri işçi qruplar çərçivəsində irəli sürdükləri təklif və problemləri növbəti iclaslarda müsbət həll yolunu tapdığını görüblər. Bu, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin apardığı genişmiqyaslı islahatların bariz nümunəsidir. Bu islahatlar təkcə biznesin inkişaf etməsinə deyil, həm də ölkənin ümumi iqtisadi inkişafına və rifahına mühüm töhfə verir. O, hər bir sahibkarın öz təcrübə və biliklərini bölüşməklə, dövlətin həyata keçirdiyi islahatları daha da gücləndirə biləcəyini qeyd edib.
Daha sonra forum çərçivəsində müxtəlif təqdimatlar keçirilib. Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin baş məsləhətçisi Elvira Siraczadə “Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiya və ən son iqtisadi islahatlar”, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin baş məsləhətçisi Gülnaz Cavadova isə “Ətraf mühit, Sosial və Korporativ İdarəetmə (ESG) üzrə vahid platforma (ESGhub.az) və milli standart” və “Dünya Bankının yeni “Business Ready” hesabatı və müasir çağırışlar” barədə təqdimatlar ediblər. Vüsal Şıxəliyev “Biznes mühitinin yaxşılaşdırılması üzrə 2025-ci il üçün prioritetlər və özəl sektorla əməkdaşlıq” mövzusunda geniş və ətraflı məlumat təqdim edib.
İştirakçıların marağına səbəb olan əsas mövzulardan biri Ətraf Mühit, Sosial və Korporativ İdarəetmə (ESG) üzrə vahid platformanın təqdimatı olub. Gülnaz Cavadovanın sözlərinə görə, sözügedən platforma ölkənin dayanıqlı inkişafına töhfə vermək üçün yeni imkanlar açacaq.
Üç saatdan çox davam edən toplantının əsas hissəsi interaktiv sual-cavab sessiyası ilə davam edib. Bu sessiya çərçivəsində

Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiya Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 iyul tarixli 2199 nömrəli Sərəncamı ilə yaradılıb.

iştirakçılar öz təklif, sual və problemlərini səsləndiriblər, fikir mübadiləsi aparıblar. Tədbirin sonunda iştirakçılar geniş “networking” və müzakirə imkanlarından faydalanıblar. “Tədbirin nəticələri yaxın gələcəkdə yeni təşəbbüslərin və layihələrin əsasını təşkil edəcək”, - deyə Telman Əliyev çıxışını yekunlaşdırıb.

Xatırladaq ki, Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiya Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 iyul tarixli 2199 nömrəli Sərəncamı ilə yaradılıb. Komissiyanın yaradılmasında məqsəd sahibkarlıq fəaliyyətinin optimal gəlirliliyini təmin edəcək və rəqabət prinsiplərinə əsaslanacaq biznes mühiti yaratmaq, ölkənin investisiya cəlbediciliyini artırmaq, beynəlxalq reytinqlərdə Azərbaycanın mövqeyini daha da yaxşılaşdırmaq üçün qanunvericiliyin və inzibatçılığın təkmilləşdirilməsi və bu istiqamətdə digər zəruri tədbirlərin görülməsinə nail olmaqdır. Komissiyanın əsas vəzifələri biznes mühitinin və beynəlxalq reytinqlərdə Azərbaycanın mövqeyinin yaxşılaşdırılmasını təmin edəcək məsələlərin həlli ilə bağlı proqram və layihələr hazırlamaq, onların hazırlanması və həyata keçirilməsi üçün yerli və xarici ekspertləri cəlb etmək, bu sahədə dövlət orqanları və qurumlarının fəaliyyətini əlaqələndirməkdir.

“Caspian Energy Club” dünyanın 50 ölkəsindən 5000-dən çox şirkəti birləşdirən dinamik və inkişaf edən regional təşkilatdır. Biznes-hökumət dialoqunun fəal iştirakçısı olan “Caspian Energy Club”ın əsas məqsədi Azərbaycanda və “Caspian Energy Club”ın fəaliyyət göstərdiyi digər ölkələrdə investisiya və işgüzar mühitin yaxşılaşdırılmasından, həmçinin B2G, B2B və B2C formatlarında dialoqların stimullaşdırılmasından və onlarda fəal iştirak etməkdən ibarətdir.

Mənzil-qərargahı Bakıda yerləşən “Caspian Energy Club”ın əsas fəaliyyəti Mərkəzi Dəhliz ölkələrini əhatə edir. “Caspian Energy Club”ın, həmçinin dünyanın 63 şəhərində rəsmi nümayəndəlikləri və səlahiyyətli nümayəndələri mövcuddur.

**Mənbə:**

https://azertag.az/xeber/caspian_energy_cluba_uzv_olan_iri_holdinqlerle_gorus_kechirilib-3344995

**Digər saytlar və portallar**

1. https://businesstime.az/vusal-sixeliyev-caspian-energy-cluba-uzv-olan-iri-holdinqlerle-gorus-kecirib
2. https://baku.news/vusal-sixeliyev-caspian-energy-club-a-uzv-olan-iri-holdinqlerle-gorus-kecirib

3. https://azranking.az/az/article/vusal-sixeliyev-caspian-energy-cluba-uzv-olan-iri-holdinqlerle-gorus-kecirib
4. https://www.respublika-news.az/az/news/1735110388-caspian-energy-cluba-uzv-olan-iri-holdinq-rehberlerile-gorus-kecirilib
5. https://innews.media/az/news/id-40604
6. https://pressa.az/iqtisadiyyat/8745-vusal-xliyev-caspian-energy-cluba-uzv-olan-iri-holdinqlrl-goru-kecirib.html
7. https://innews.media/az/news/id-40604
8. https://ictimai.az/vusal-sixeliyev-caspian-energy-cluba-uzv-olan-iri-holdinqlerle-gorus-kecirib/
9. https://pressa.az/iqtisadiyyat/8745-vusal-xliyev-caspian-energy-cluba-uzv-olan-iri-holdinqlrl-goru-kecirib.html
10. https://redaksiya.az/vusal-sixeliyev-caspian-energy-cluba-uzv-olan-iri-holdinqlerle-gorus-kecirib
11. https://faktor.az/az/economy/117342-vusal-sixeliyev-caspian-energy-cluba-uzv-olan-iri-holdinqlerle-gorus-kecirib
12. https://baku.news/vusal-sixeliyev-caspian-energy-club-a-uzv-olan-iri-holdinqlerle-gorus-kecirib
13. https://avtor.az/vusal-sixeliyev-caspian-energy-cluba-uzv-olan-iri-holdinqlerle-gorus-kecirib
14. https://inter.az/vusal-sixeliyev-caspian-energy-cluba-uzv-olan-iri-holdinqlerle-gorus-kecirib
15. https://yenituran.az/?p=2983
16. https://azturkxeber.az/iqtisadiyyat/2457-caspian-energy-cluba-zv-olan-iri-holdinqlrl-gr-keirilib.html

Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiya Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 iyul tarixli 2199 nömrəli Sərəncamı ilə yaradılıb.

**“Kommunal xidmətlərlə bağlı vahid informasiya sisteminin yaradılması üzrə” altqrupun ilk iclası**

**23.12.2024**

Kommunal xidmətlərlə bağlı vahid informasiya sisteminin yaradılması üzrə Yol Xəritəsinin ilkin layihəsi hazırlanmaqdadır.

**trend.az**

**“Kommunal xidmətlərlə bağlı vahid informasiya sisteminin yaradılması üzrə” altqrupun ilk görüşü keçirilib**

Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən rəhbərliyi həyata keçirilən “Kommunal xidmətlərlə bağlı vahid informasiya sisteminin yaradılması üzrə” altqrupun 20 dekabr 2024-cü il tarixində ilk görüşü baş tutub.
Trend xəbər verir ki, bu barədə İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi məlumat yayıb.
Bildirilib ki, görüş Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin sektor müdiri Vüsal Şıxəliyev, rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Samir Məmmədov, İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin (İRİA) İdarə Heyətinin sədri İnarə Vəliyeva və İRİA-nın İdarə Heyəti sədrinin müavini Şahin Əliyevin rəhbərliyi ilə keçirilib.
Bununla yanaşı, görüşdə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin digər altqurumları, o cümlədən Energetika Nazirliyi, İqtisadiyyat Nazirliyi, Daxili İşlər Nazirliyi, Ədliyyə Nazirliyi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Dövlət Su Ehtiyatları Agentliyi, Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin tabeliyində "Azəriqaz" İstehsalat Birliyi, “Azərişıq” Açıq Səhmdar Cəmiyyəti, “Azəristiliktəchizat” Açıq Səhmdar Cəmiyyəti və digər dövlət qurumlarının nümayəndələri iştirak ediblər.
Görüşdə Dünya Bankı Qrupunun yeni “Business Ready” hesabatında “Kommunal xidmətlərlə bağlı vahid informasiya sistemi” üzrə tələblər və qarşıda duran vəzifələr, kommunal xidmətlərlə bağlı vahid informasiya sistemi üzrə tapşırıqlar və görülmüş işlərin statusu, kommunal xidmətlərə qoşulma üzrə elektronlaşma və rəqəmsallaşma istiqamətində görülmüş işlər və potensial imkanlar barəsində fikir mübadiləsi aparılıb.
Görüş iştirakçıları, həmçinin kommunal xidmətlərlə bağlı vahid informasiya sisteminin yaradılması üzrə Yol Xəritəsinin ilkin layihəsi üzrə təklifləri də müzakirə ediblər.

**Mənbə:**

https://az.trend.az/business/3985484.html

**Digər saytlar və portallar**

1. https://azranking.az/az/article/kommunal-xidmetlerle-bagli-vahid-informasiya-sisteminin-yaradilmasi-uzre-altqrupun-ilk-gorusu-kecirilib
2. https://innews.media/az/news/id-40354

**“Əmtəə bazarının səmərəliliyi və rəqabət” İşçi qrupunun fəaliyyəti**

**23.12.2024**

marja.az

**Dövlət Xidməti: İqtisadi təmərküzləşmə ilə bağlı baxılan müraciətlərin sayı 3 dəfəyədək artıb - 72 MÜRACİƏT**

*Bu məlumat Azərbaycan Respublikasının Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyasının Əmtəə bazarının səmərəliliyi və rəqabət işçi qrupunun Fəaliyyət Planının tələblərinə əsasən hazırlanıb.*

İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti tərəfindən Rəqabət Məcəlləsi əsasında rəqabət problemlərinə dair effektiv tənzimləmə mexanizmlərinin tətbiqi, bazarlarda rəqabətli mühitin təmin edilməsi ilə azad sahibkarlığın təşviqi və iqtisadi səmərəliliyin artırılmasına yönələn tədbirlər davam etdirilir

Rəqabət intizamının qorunması və inhisarçı davranışlarla mübarizə istiqamətində cari ilin on bir ayı ərzində bazarda hökmran mövqe və nisbətən yüksək bazar gücündən sui-istifadə hərəkətləri ilə rəqabətin məhdudlaşdırılmasına yol verilməsi üzrə Dövlət Xidməti tərəfindən ümumilikdə 153 müraciətə baxılıb, onlardan 89-u təmin olunub. Baxılmış müraciətlərin sayında ötən ilin müvafiq dövrü ilə müqayisədə 3 dəfədək artım müşahidə olunub.

Bundan əlavə, müvafiq dövr ərzində iqtisadi təmərküzləşmə əməliyyatları üzrə 72 müraciətə baxılıb ki, bu da 2023-cü ilin yanvar-noyabr ayları ilə müqayisədə 3 dəfəyədək artım deməkdir. Baxılmış müraciətlərdən 40-ı təmin olunub. Rəqabət qanunvericiliyinə riayət olunmasına nəzarət üzrə baxılmış digər müraciətlərin sayı isə 52 olub və onlardan 32-si təmin edilib.

Ötən dövrdə Dövlət Xidməti tərəfindən haqsız rəqabət, bazar subyektinin mövcud qanunvericiliyə zidd və ədalətsiz üsullarla üstünlük əldə etməyə yönələn, bununla da rəqiblərinə zərər vura bilən hərəkətlərinin qarşısının alınması istiqamətində tənzimləyici tədbirlər həyata keçirilib.

Bu ilin yanvar-noyabr ayları ərzində qanunsuz reklamların yayımı ilə əlaqədar baxılmış müraciətlər üzrə ötən illə müqayisədə 29,4% artım qeydə alınıb. Belə ki, baxılmış 110 müraciətin 59-u təmin olunub. Ötən ilin analoji dövrü ilə müqayisədə təmin olunma səviyyəsində 44% artım müşahidə edilib. Mal və xidmətlərdən istifadə edərkən istehlakçı seçimlərini stimullaşdıran reklam fəaliyyəti üzrə həyata keçirilən tədbirlər çərçivəsində alkoqollu içkilər, ət məhsulları, tütün və tütün məmulatları, körpələr və erkən

“Əmtəə bazarının səmərəliliyi və rəqabət” işçi qrupunun 2024-cü il üçün Fəaliyyət Planı 27.03.2024-cü il tarixində təsdiq olunub

yaşlı uşaqlar üçün süni qida məhsulları, nəqliyyat vasitələri, bank, kredit, təhsil, logistika, karqo və ictimai iaşə xidmətləri sahəsində ümumilikdə 29 bazar subyekti tərəfindən reklam qanunvericiliyinin tələblərinin pozulması halları müəyyən edilib. Aşkar edilən pozuntular görülmüş tədbirlər nəticəsində könüllü aradan qaldırılıb.

Analoji dövrdə Dövlət Xidmətində pozuntu hallarının qarşısının alınması və rəqabət tənzimləmələri istiqamətində bazar subyektləri tərəfindən haqsız rəqabətə yol verilməsi barədə 149 müraciətə baxılıb, 106 qanunamüvafiq izahat verilib, 26 müraciət təmin olunub. Digər bazar subyektinin əmtəə nişanından qanunsuz istifadə etməklə haqsız rəqabətə yol vermə əlamətləri üzrə Dövlət Xidmətinə daxil olmuş müraciətlər zamanı görülmüş tədbirlər nəticəsində 26 bazar subyekti tərəfindən neqativ hallar könüllü aradan qaldırılıb.

Cari ilin yanvar-noyabr ayları ərzində müştərilər və biznes subyektlərinin qanuni mənafelərinə mənfi təsir göstərə bilən davranışlarının qarşısının alınması və aradan qaldırılması, şəffaf və rəqabətə əsaslanan münasibətlərin gücləndirilməsi istiqamətində Dövlət Xidməti tərəfindən təbii inhisar subyektlərinin fəaliyyətinə nəzarət tədbirləri həyata keçirilib.

Analoji dövrdə təbii inhisar subyektlərinin göstərdiyi xidmətlərlə əlaqədar baxılmış müraciətlər üzrə 36,5% artım qeydə alınıb. Belə ki, baxılmış 1275 müraciətin 354-ü təmin olunub. 2023-cü ilin yanvar-noyabr ayları ilə müqayisədə təmin olunmuş müraciətlərin sayı 63,1% artıb. Bundan əlavə, sözügedən sahə üzrə 615 qanunamüvafiq izahat və tövsiyə verilib, 42-si baxılması üçün aidiyyəti orqana göndərilib, 126 halda rəy və təklif verilib, 3 halda aidiyyəti üzrə müraciət etmələri tövsiyə olunub, 2 halda zəruri sənədlər təqdim edilmədiyindən baxılması dayandırılıb, 1 halda müraciət işə alınıb, 132 müraciət üzrə isə araşdırmalar davam etdirilir. Qeyd edək ki, vətəndaşlardan daxil olan müraciətlər kommunal, hava yolu nəqliyyatı, dəmir yolu nəqliyyatı, suvarma (meliorasiya və irriqasiya), poçt xidmətləri və digər sahələri əhatə edib.

Qeyd: Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiya Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 iyul tarixli 2199 nömrəli Sərəncamı ilə yaradılıb. Komissiyanın Əmtəə bazarının səmərəliliyi və rəqabət İşçi qrupuna rəhbərliyi İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti həyata keçirir.

**Mənbə:**

https://marja.az/122941/dovlet-xidmeti-iqtisadi-temerkuzlesme-ile-bagli-muracietlerin-sayi-3-defeyedek-artib-72-muraciet

**Digər saytlar və portallar**

1. https://azertag.az/xeber/dovlet_xidmeti_11_ayliq_fealiyyetinin_neticelerini_achiqlayib-3344047
2. https://azertag.az/xeber/azerbaycanda_elektron_satinalmalarin_umumi_meblegi_3_defe_artib-3348415
3. https://fed.az/az/diger/azerbaycanda-elektron-satinalmalarin-hecmi-3-defe-artib-218751
4. https://olaylar.az/news/iqtisadiyyat/581898
5. https://apa.az/sahibkarliq/azerbaycanda-elektron-satinalmalarin-hecmi-35-mlrd-manati-otub-881991
6. https://olaylar.az/news/iqtisadiyyat/581623
7. https://xalqqazeti.az/az/last-news/208594

8. https://yeniazerbaycan.com/xeberlenti_e115201_az.html
9. https://xalqqazeti.az/az/last-news/208244
10. https://bbn.az/antiinhisar-v%c9%99-istehlak-bazarina-n%c9%99zar%c9%99t-dovl%c9%99t-xidm%c9%99tinin-m%c9%99lumati-8/
11. https://valyuta.az/az/xeber/62037/elektron-satinalmalarin-hecmi-35-mlrd-manati-tub/
12. https://nocomment.az/elektron-satinalmalarin-hecmi-3-5-mlrd-manati-otub/
13. https://ikisahil.az/post/564188
14. https://bbn.az/antiinhisar-v%c9%99-istehlak-bazarina-n%c9%99zar%c9%99t-dovl%c9%99t-xidm%c9%99tinin-m%c9%99lumati-7/

**Maliyyə bazarlarının inkişafı və kreditlərin əlçatanlığı işçi qrupunun fəaliyyəti**

**23.12.2024**

report.az

**Maliyyə bazarlarının inkişafı və kreditlərin əlçatanlığı işçi qrupu açıqlama yayıb**

Azərbaycanda dövriyyə kapitalı, kapitalın əsas növlərindən biri olmaqla istehsalın təşkili üçün lazım olan kapital hesab olunur. "Report" xəbər verir ki, bu barədə Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyasının Maliyyə bazarlarının inkişafı və kreditlərin əlçatanlığı işçi qrupunun açıqlamasında bildirilir. İşçi qrupuna Azərbaycan Mərkəzi Bankı (AMB) rəhbərlik edir.

Məlumata görə, bu kapital istehsal prosesində tamamilə istehlak olunan və öz dəyərini istehsal edilən əmtəələrin üzərinə keçirən, habelə istehsal olunmuş məhsulların satışından sonra pul formasında sahibinə qayıdan hissədir.

Əsas vəsait anlayışı Vergi Məcəlləsi ilə tənzimlənir. Vergi Məcəlləsinə əsasən, “əsas vəsaitlər” istifadə müddəti bir ildən çox olan və dəyəri 500 manatdan çox olan, həmin Məcəllənin 114-cü maddəsinə uyğun olaraq amortizasiya edilməli olan maddi aktivlərdir.

Mülki Məcəlləyə, “Banklar haqqında” qanuna və AMB-nin “Bank hesablarının açılması, aparılması və bağlanması Qaydası”na əsasən, müəssisə (i) cari, (ii) cari subhesab, (iii) əmanət və (iv) müxbir hesablar aça bilər.

“Overdraft facility” Mülki Məcəlləyə əsasən hesabın kreditləşdirilməsi kimi müəyyən edilir. Belə ki, bank hesabı müqaviləsinə müvafiq surətdə, pul vəsaitinin olmadığına baxmayaraq, bankın ödənişləri həyata keçirdiyi hallarda (hesabın kreditləşdirilməsi) bank bu cür ödənişi həyata keçirdiyi gündən müştəriyə müvafiq məbləğdə kredit vermiş sayılır.

“Banklar haqqında” Qanuna əsasən, kredit bağlanmış müqaviləyə uyğun olaraq qaytarılmaq, müəyyən müddətə (müddətin uzadılması hüququ ilə) və faizlər və (və ya) müqavilədə göstərilən digər ödənişlər ödənilmək şərti ilə, təminatla və ya təminatsız müəyyən məbləğdə borc verilən pul vəsaitidir. Həmin şərtlərlə pul vəsaitinin verilməsi haqqında götürülmüş hər hansı öhdəlik, qarantiya, zəmanət və s. verilmiş vəsaitin qaytarılmasını tələb etməklə bağlı digər hüquq da kredit anlayışına aiddir.

“Maliyyə bazarlarının inkişafı və kreditlərin əlçatanlığı” işçi qrupunun 2024-cü il üçün Fəaliyyət Planı” 13.02.2024-cü ildə təsdiq olunub.

Kredit xətti kredit müqaviləsinə uyğun olaraq tam və ya qismən istifadə edilə bilən, faiz dərəcəsi kredit xəttinin yalnız istifadə olunmuş hissəsinə hesablanan və yuxarı həddi müəyyənləşdirilmiş bank kreditidir.

Maliyyə institutları anlayışı "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Qanunda verilib və kredit təşkilatları, həyatın yığım sığortası fəaliyyəti ilə məşğul olan yerli və xarici sığortaçılar, təkrarsığortaçılar, sığorta vasitəçiləri, investisiya şirkətləri, investisiya fondları, bu fondların idarəçiləri, xarici investisiya fondlarının nümayəndəlikləri, mərkəzi depozitar, poçt rabitəsinin milli operatoru, lombardlar, maliyyə lizinqi xidmətləri göstərən şəxslər, ödəniş təşkilatları (müstəsna olaraq ödəniş əməliyyatının aparılması üçün vasitəçilik xidməti və (və ya) hesab üzrə məlumat xidməti göstərən ödəniş təşkilatları istisna olmaqla) və elektron pul təşkilatları, virtual aktiv xidməti təminatçıları və valyuta mübadiləsi fəaliyyətinə lisenziya almış şəxsləri ehtiva edir.

Lakin "Mərkəzi Bank haqqında" qanunda maliyyə institutları anlayışı deyil, nəzarət subyektləri anlayışı nəzərdə tutulub və nəzarət subyektləri kimi banklar, bank olmayan kredit təşkilatları (BOKT), sığorta bazarının peşəkar iştirakçıları, investisiya şirkətləri və qiymətli kağızlar bazarında digər lisenziyalaşdırılan şəxslər, investisiya fondları, investisiya fondunun idarəçiləri, ödəniş təşkilatları, elektron pul təşkilatları, ödəniş sistemləri operatorları, klirinq (prosessinq) fəaliyyətini həyata keçirən şəxslər, kredit büroları və maliyyə bazarlarını tənzimləyən qanunlarla AMB-nin nəzarət etdiyi subyektlər kimi müəyyən edilən digər şəxslər nəzərdə tutulur.

Girov və ipoteka hüququ, öhdəliyin icrasının təminatı üsulu olmaqla, girov qoyanın əşyası barəsində girov saxlayanın əşya hüququdur. İpoteka predmeti olan əşyalar, mülki dövriyyədən çıxarılmış əşyalar, habelə qanunla güzəşt olunması və ya girov qoyulması qadağan edilmiş tələblər və hüquqlar istisna olmaqla, istənilən əşyalar və tələblər girov predmeti ola bilər.

Qanunvericiliyə əsasən, daşınar və daşınmaz əmlak üzərində hüquqları və yüklülüyü təsbit edən reyestrlər mövcuddur. Belə ki, daşınmaz əmlak üzərində hüquqların qeydiyyatı daşınmaz əmlakın dövlət reyestrində aparılır.

Daşınar əmlaka yüklülüyün yaranması, yüklülüyə dəyişikliklər edilməsi, onun xitamı, habelə daşınar əmlak üzərində yüklülüyə etiraz edilməsi ilə bağlı qeydlərin aparılması üçün isə daşınar əmlakın yüklülüyünün dövlət reyestri (Reyestr) aparılır. Rəsmi reyestrlərdə qeydiyyata alınan daşınar əşyalar

"Maliyyə bazarlarının inkişafı və kreditlərin əlçatanlığı" işçi qrupunun 2024-cü il üçün Fəaliyyət Planı" 13.02.2024-cü ildə təsdiq olunub.

(avtomobil və s.) və dövlət qeydiyyatına alınmalı olan qiymətli kağızlar (səhm, istiqraz və s.) istisna olmaqla bütün daşınar əmlaklar Reyestrdə qeydiyyata alına bilər.

İstehlak krediti sahibkarlıq və ya peşə fəaliyyəti, habelə daşınmaz əmlakın əldə edilməsi və tikintisi ilə bağlı olmayan məqsədlər üçün fiziki şəxslərə verilən kreditdir.

Həmçinin, avtomobil nəqliyyatı vasitəsinin əldə edilməsi məqsədi ilə verilən və təminat predmeti həmin avtomobil nəqliyyatı vasitəsi olan kredit də istehlak krediti sayılır.

Mülki Məcəlləyə əsasən, məhdud məsuliyyətli cəmiyyət (mikro və kiçik sahibkarlıq subyektləri istisna olmaqla) illik maliyyə hesabatlarının düzgünlüyünü yoxlatmaq üçün hər il müstəqil auditor cəlb etməlidir (kənar audit). Habelə bu Məcəllənin 99-cu maddəsində göstərilən sənədlərin dərci zamanı səhmdar cəmiyyəti illik maliyyə hesabatlarının yoxlanılması üçün müstəqil auditoru cəlb etməyə borcludur.

Nağdsız hesablaşma dedikdə, aşağıdakılar nəzərdə tutulur:

bir şəxsin bank hesabından digər şəxsin bank hesabına köçürülməklə (o cümlədən ödəniş alətləri (ödəniş kartları, ödəniş tapşırığı və s.) və ödəniş vasitələri (mobil telefon aparatları, kompüter və digər avadanlıq) ilə həyata keçirilən hesablaşmalar;

ödəniş terminalları ilə həyata keçirilən hesablaşmalar;

birbaşa nağd qaydada satıcının bank hesabına köçürülməklə həyata keçirilən hesablaşmalar.

Bununla yanaşı, nağdsız hesablaşmalar aparılarkən ödəniş tapşırıqları ilə, akkreditiv üzrə hesablaşmalara, inkasso üzrə, çeklərlə, ödəniş kartları ilə, elektron şəklində hesablaşmalara, habelə qanunvericilikdə nəzərdə tutulmuş digər formalarda hesablaşmalara yol verilir.

Eyni zamanda, “İstehlakçıların hüquqlarının müdafiəsi haqqında” qanuna əsasən ticarət, məişət və digər növ xidmətlərin göstərilməsi zamanı müştərilərlə hesablaşmaların aparılması, habelə vergilərin və dövlət orqanlarının göstərdiyi xidmətlərə (işlərə) görə dövlət rüsumlarının və haqlarının ödənilməsi üçün müvafiq POS-terminallar quraşdırılmalıdır.

Ödəniş aləti ödəniş xidməti istifadəçisinin (i.e. ödəyici və (və ya) vəsait alan qismində ödəniş xidmətlərindən istifadə edən şəxs) ödəniş sərəncamının verilməsi məqsədilə istifadə etdiyi və ödəniş xidməti təchizatçısı (i.e. banklar, BOKT-lər, ödəniş və e-pul təşkilatları, poçt rabitəsinin milli operatoru və Mərkəzi Bank) ilə razılaşdırılmış hər hansı bir fərdiləşdirilmiş alət və (və ya) prosedurlar toplusudur.

Nağdsız ödəniş alətlərinə ödəniş kartları (debit, kredit kartı), elektron pul, elektron pul kisəsini və s. aid etmək olar.

“Maliyyə bazarlarının inkişafı və kreditlərin əlçatanlığı” işçi qrupunun 2024-cü il üçün Fəaliyyət Planı” 13.02.2024-cü ildə təsdiq olunub.

Ödəniş xidməti təchizatçısı ödəniş sərəncamını icraya qəbul etdiyi vaxtdan növbəti iş günündən gec olmayaraq icra etməlidir. Bununla belə, ödəniş xidmətlərinin ödəniş terminalları vasitəsilə göstərildiyi hal istisna olmaqla, vəsait alanın xeyrinə ödəniş xidməti təchizatçısına daxil olan pul vəsaiti həmin əməliyyat günü vəsait alanın ödəniş hesabına mədaxil edilməli və (və ya) pul vəsaitinin istifadəsinə imkan yaradılmalıdır. Hesaba mədaxil edilməli olan pul vəsaitinin valyutası hesabda olan məbləğin valyutasından fərqli olduqda pul vəsaitinin hesaba mədaxil edilməsi müddəti ödəniş xidməti istifadəçisi ilə ödəniş xidməti təchizatçısı arasında bağlanılmış müqavilə ilə tənzimlənir.
Mülki Məcəlləyə əsasən, bank müştərinin hesabına daxil olmuş pul vəsaitini, qanunda ayrı qayda nəzərdə tutulmadıqda, həmin əməliyyat günündən gec olmayaraq hesaba salmalıdır. Həmçinin, bank müştərinin sərəncamı ilə müştərinin pul vəsaitini müvafiq ödəniş sərəncamının banka daxil olduğu günün ertəsi günündən gec olmayaraq verməli və ya hesabdan köçürməlidir, bu şərtlə ki, qanunla, qanuna uyğun qəbul edilmiş bank qaydaları ilə və ya bank hesabı müqaviləsi ilə ayrı müddətlər nəzərdə tutulmasın.
“Banklar haqqında” qanuna əsasən hər bir bank müştərilərlə bağladığı müqavilədə xidmət şərtlərini, o cümlədən faiz dərəcələrini, komisyon haqlarını və göstərilən bank xidmətləri üçün digər ödənişləri, habelə bankın verdiyi kreditlərin ödənişi şərtlərini və qaydalarını müəyyən etməkdə sərbəstdir.

**Mənbə:**

https://report.az/maliyye-xeberleri/maliyye-bazarlarinin-inkisafi-ve-kreditlerin-elcatanligi-isci-qrupu-aciqlama-yayib/

**Digər saytlar və portallar**

1. https://pravda.az/news/171004
2. https://sia.az/az/news/economy/1216389.html
3. https://avesta.az/77343-maliyybazarlarnninkiafvkreditlrinlatanliiqrupuaqlamayayb.html
4. https://ena.az/az/news/id-61888?fbclid=IwY2xjawHdwzlleHRuA2FlbQIxMQABHdEOiYq7qVcwX9fBO4sxnVe34UblvhixcDS5HgqiVDyw_6Y1514W-sQafA_aem_rudBdOY-h80kqyE16eXvug

**“Mübahisələrin həlli, məhkəmə sistemi və hüququn aliliyi” İşçi qrupunun məlumatı**

**23.12.2024**

oxu.az

**Bizneslə bağlı zəruri məlumatların əks olunduğu icmal hazırlandı**

Biznes mühitinin müxtəlif sahələrinə dair qanunvericilik normaları və elektron dövlət xidmətləri barədə zəruri məlumatların əks olunduğu icmal hazırlanaraq nəşr olunub. Oxu.Az xəbər verir ki, icmalın müvafiq bölmələri Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın aidiyyəti dövlət qurumlarının rəhbərlik etdiyi işçi qrupları tərəfindən tərtib olunub. Biznes sahələri üzrə qanunvericilik və inzibatçılıqla bağlı maraqlı tərəflərin məlumatlılıq səviyyəsinin artırılması məqsədilə icmalın bəzi hissələri təqdim olunur.

**Arbitraja dair qanunvericilik tənzimlənməsi**

Azərbaycan Respublikasının 2023-cü il 26 dekabr tarixli 1077-VIQ nömrəli Qanunu ilə "Arbirtaj haqqında" yeni Qanun təsdiq edilib.

Qanunun qəbul edilməsi ilə "Beynəlxalq arbitraj haqqında" Azərbaycan Respublikasının Qanunu ləğv edilmiş, mübahisələrin alternativ həlli mexanizmlərini sırasına beynəlxalq arbitrajla yanaşı, daxili arbitraj da aid edilib.

**Arbitraj** - daimi arbitraj təşkilatı tərəfindən idarə edilib-edilməməsindən asılı olmayaraq arbitraj məhkəməsi tərəfindən məcburi hüquqi qüvvəyə malik qərarın çıxarılması məqsədilə həyata keçirilən mübahisəyə baxılma prosesidir.

Arbitrajda həll oluna bilməyən işlər (Qanunun 13.2-ci maddəsində müəyyən olunmuşdur) istisna olmaqla, kommersiya mübahisələri, habelə tərəflərin mübahisənin predmeti barədə sərəncam hüququna malik olduğu və üçüncü şəxslərin hüquqlarına, qanuni mənafelərinə toxunmayan bütün mübahisələr arbitrajda həll edilə bilər.

Arbitraj beynəlxalq və ya daxili ola bilər. Arbitrajın beynəlxalq sayılması əsasları Qanunun 4-cü maddəsində tənzimlənmişdir. Qanunun 11 və 12-ci maddələrinə görə daxili arbitraj daimi arbitraj təşkilatı tərəfindən idarə edilir. Beynəlxalq arbitraj isə həm daxili arbitraj təşkilatları tərəfindən, həm də ad hoc (ad hok) qaydada idarə oluna bilər.

Arbitraja münasibətdə nəzarət və yardım funksiyalarını aidiyyəti üzrə Bakı Kommersiya Məhkəməsi, Bakı Apellyasiya Məhkəməsi və Azərbaycan Respublikasının Ali Məhkəməsi yerinə yetirir (Qanunun 10-cu maddəsi).

Qanunun qəbulu ilə eyni gündə Mülki Prosessual Məcəllədə (https://e-qanun.az/framework/46945) də dəyişiklik edilmiş və Məcəllənin 50-ci

“Mübahisələrin həlli” indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi 31.05.2024-cü il tarixində təsdiq olunub

fəsli "Xarici arbitraj məhkəmələrinin qərarlarının tanınması və icrası" adlandırılaraq yenilənmiş, habelə Məcəlləyə "Arbitraja münasibətdə yardım və nəzarət funksiyalarının yerinə yetirilməsi ilə bağlı işlər üzrə icraat" bölməsi əlavə edilmişdir.

Arbitrajın əsas xarakterik xüsusiyyətlərindən biri də arbitraj qərarının ləğvi, yaxud xarici arbitraj məhkəmələrinin qərarlarının tanınması və icrası haqqında ərizə verildikdə bu ərizəyə baxarkən məhkəmənin arbitraj məhkəməsinin qərarına mahiyyəti üzrə yenidən baxmaq səlahiyyətinin olmamasıdır. Yəni arbitraj məhkəməsinin qərarı qətidir və yalnız Qanunun 54.1 və 56.1-ci maddələrində qeyd olunan əsaslar mövcud olduqda o, tam və ya qismən ləğv edilə, yaxud onun tam və ya qismən tanınmasından və ya icra edilməsindən imtina edilə bilər.

Bu mövzuda daha ətraflı məlumatla Biznes mühitinin müxtəlif sahələrinin tənzimlənməsi çərçivələri və elektron xidmətlər barədə İcmal sənədində (səhifə 11) tanış ola bilərsiniz.

Qeyd edək ki, Azərbaycan Respublikasının Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyasının Mübahisələrin həlli, məhkəmə sistemi və hüququn aliliyi işçi qrupuna Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi rəhbərlik edir.

**Mənbə:**

https://oxu.az/iqtisadiyyat/biznesle-bagli-zeruri-melumatlarin-eks-olundugu-icmal-hazirlandi

## Digər saytlar və portallar

1. https://azertag.az/xeber/mehkemelerin_hakimlerin_musteqilliyi___icmaldan_chixarislar-3344243
2. https://az.trend.az/azerbaijan/society/3985402.html
3. https://qaynarinfo.az/az/biznes-muhitinin-qanunvericilik-normalari-ve-elektron-doevlet-xidmetleri-barede-icmal-hazirlanib-1
4. https://valyuta.az/az/xeber/61890/biznes-muhitinin-qanunvericilik-normalari-ve-elektron-dvlet-xidmetleri-berede-icmal-hazirlanib/
5. https://www.regionxeberlericom.az/ar/108771-biznesle-bagli-zeruri-melumatlarin-eks-olundugu-icmal-hazirlandi.html
6. https://fins.az/biznes/328353/biznes-muhiti-ve-beynelxalq-reytinqler-uzre-komissiya-yeni-icmal-derc-etdi/

**“İnternetə qoşulma və internet infrastrukturu” İşçi qrupunun məlumatı**

**23.12.2024**

**fed.az**

**Sabit genişzolaqlı internetə dair zəruri məlumatların əks olunduğu icmal hazırlanıb**

Sabit genişzolaqlı internet müəssisələr üçün əsas infrastruktur elementlərindən biridir. Bu barədə İnternetə qoşulma və internet infrastrukturu işçi qrupunun məlumatında bildirilib. Qeyd edilib ki, biznes mühitinin müxtəlif sahələrinə dair qanunvericilik normaları və elektron dövlət xidmətləri barədə zəruri məlumatların əks olunduğu icmal hazırlanaraq nəşr olunub

“Kommunal xidmətlər (internet)” indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi 09.07.2024-cü ildə təsdiq olunub.

(https://azranking.az/public/images/Biznes%20sah%C9%99l%C9%99ri-icmal-01.11.2024.pdf). İcmalın müvafiq bölmələri Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın aidiyyəti dövlət qurumlarının rəhbərlik etdiyi işçi qrupları tərəfindən tərtib olunub.

**İnternetə qoşulma**

İnternet telekommunikasiya xidməti - beynəlxalq standartlarla müəyyən olunan İnternet protokol əsasında qlobal informasiya şəbəkəsində göstərilən telekommunikasiya xidmətidir. Sabit genişzolaqlı internet müəssisələr üçün əsas infrastruktur elementlərindən biridir. İdarə, müəssisə, təşkilat və vətəndaşlar İnternet telekommunikasiya xidmətindən istifadə etmək üçün İnternet Provayderlərinə müraciət edə bilərlər. Müraciət yazılı və elektron poçtla ola bilər. İnternet Provayderləri internet telekommunikasiya xidmət növləri üzrə və uyğun olaraq çəkiliş prosedurası və qiymətləri haqqında məlumat verməlidirlər. İnternet telekommunikasiya xidmətindən istifadəyə görə Provayderlər Abunəçilərlə qanunvericiliyin (Telekommunikasiya haqqında Azərbaycan Respublikasinin Qanununun 40-cı maddəsi – Abunəçi ilə bağlanan müqaviləyə dair zəruri tələblər) tələblərinə uyğun olaraq tərəflərin hüquq, vəzifə və məsuliyyətlərini əks edən müqavilə bağlamalıdırlar. Müqavilə 2 nüsxədə

tərtib olunur və onlardan biri Abunəçiyə verilir, digəri isə Provayderdə saxlanılır. İstifadəçinin xidmətə qoşulmaq üçün müraciət anı ilə xidmət təqdim edən sahibkarlıq subyektinin xidmət üçün lazım olan vasitələri təmin etməsi anı arasındakı müddət "6" gün olmalıdır.

Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyasının 2023-cü il 21 dekabr tarixli 3-27/3-7-18/2023 nömrəli Qərarı ilə təsdiq edilmiş "Rabitə və yüksək texnologiyalar sahəsi üzrə xidmətlərin, o cümlədən internet xidmətlərinin keyfiyyət göstəriciləri"ndə xidmətə qoşulma müddəti öz əksini tapmışdır. Provayder, Abunəçiyə göstərdiyi xidmət müqabilində hesablaşma aparır. İnternet Provayderlərinin göstərdiyi internet xidmətlərinin haqqı, Provayderlər tərəfindən təsdiq olunan internet xidmətləri üçün tarif preyskurantına əsasən ödənilir. İnternet xidmətinə qoşulma üçün ümumi ödəniş (avadanlıq, quraşdırma haqları daxil olmaqla) və aylıq abunə haqları əvvəlcədən ödənilir. Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə əsasən Abunəçiyə göstərilən xidmətlərə görə ƏDV (əlavə dəyər vergisi) tutulur. Ödəmə, hər ay Provayder tərəfindən təqdim edilmiş hesaba görə Provayderin hesabına nağd və ya köçürmə yolu ilə həyata keçirilir.

Abunəçilər xidmət tariflərinin dəyişməsi ilə əlaqədar əvvəlcədən İnternet Provayderlər tərəfindən yazılı şəkildə və ya email-lə xəbərdarlıq edilməlidir. Mövcud qanunvericiliyə əsasən internet provayderlərin vəzifələrindən biri də telekommunikasiya xidmətlərini müəyyən edilmiş standart, norma və qaydalara uyğun keyfiyyətlə göstərməkdir. Əgər internet xidmətində tam dayanma və ya müqavilədə nəzərdə tutulan sürətdən dəfələrlə az və birbaşa xidmət təminatçısının səhvi səbəbindən baş vermiş sürət azalması kimi problemlər yaşamısınızsa, bu barədə provayderə və aidiyyəti qurumlara (məsələn: İnformasiya Kommunikasiya Texnologiyaları Agentliyinin E-Şikayət sisteminə e-complaint.icta.az və s.) məlumat verə bilərsiniz.

Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyasının 2023-cü il 21 dekabr tarixli 3-27/3-7-18/2023 nömrəli Qərarı ilə təsdiq edilmiş "Rabitə və yüksək texnologiyalar sahəsi üzrə xidmətlərin, o cümlədən internet xidmətlərinin keyfiyyət göstəriciləri"ndə Orta Bərpa Vaxtı - xidmətin əlçatan olmayan vaxt intervallarının orta müddəti, Zədələnmə səviyyəsi - müəyyən vaxt vahidi üçün zədələnmələrin orta sayının nisbəti və Bərpa səviyyəsi - müəyyən vaxt ərzində zədəli vəziyyətdən işlək vəziyyətə keçidlərin orta sayının nisbəti kimi keyfiyyət tələbləri öz əksini tapmışdır. Fasilələr nəticəsində yaranan zərərlər

"Kommunal xidmətlər (internet)" indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi 09.07.2024-cü ildə təsdiq olunub.

müəssisələrin maliyyə göstəricilərinə təsir edir. Telekommunikasiya fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar dəymiş zərərin ödənilməsi ilə bağlı yaranan problemlər zamanı qanunvericilikdə müəyyən kompensasiya mexanizmləri mövcuddur. Bu, Telekommunikasiya Haqqında Azərbaycan Respublikasının Qanununun 41-ci (Telekommunikasiya fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar dəymiş zərərin ödənilməsi) maddəsində öz əksini tapmışdır.

Mövcud müqavilələr, texniki problemlər və bazardakı alternativlərin sayı bu məsələyə təsir edə bilər. Azərbaycanda mövcud qanunvericilik bu prosesi tənzimləyir və asanlaşdırır. Telekommunikasiya Haqqında Azərbaycan Respublikasının Qanununun 34-cü (Abunəçilərin hüquq və vəzifələri) maddəsinə əsasən abunəçilər operatoru, provayderi sərbəst seçmək və eyni zamanda keyfiyyətli telekommunikasiya xidmətlərini tələb etmək hüququna malikdir. Həmçinin İstehlakçıların hüquqlarının müdafiəsi haqqında Azərbaycan Respublikasının Qanununun 3-cü maddəsinə (İstehlakçıların hüquqları) əsasən Azərbaycan Respublikası ərazisində istehlakçılar malların (işlərin, xidmətlərin) və onların istehsalçısının, icraçısının və satıcısının sərbəst seçilməsi və eləcə də istehlak etdikləri malların (işlərin, xidmətlərin) lazımi keyfiyyətdə olması hüququna malikdirlər.

Bu mövzuda daha ətraflı məlumatla Biznes mühitinin müxtəlif sahələrinin tənzimlənməsi çərçivələri və elektron xidmətlər barədə İcmal sənədində (səhifə 6–7) tanış ola bilərsiniz.

Qeyd edək ki, Azərbaycan Respublikasının Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyasının İnternetə qoşulma və internet infrastrukturu işçi qrupuna Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi rəhbərlik edir (https://azranking.az/working-groups).

**Mənbə:**

https://fed.az/az/diger/sabit-geniszolaqli-internete-dair-zeruri-melumatlarin-eks-olundugu-icmal-hazirlanib-218614

**Digər saytlar və portallar**

1. https://sizinxeber.az/economy/infrastruktur/56269-sabit-genizolaql-internet-dair-zruri-mlumatlarn-ks-olunduu-icmal-hazrlanb.html
2. https://apa.az/infrastruktur/sabit-geniszolaqli-internete-dair-zeruri-melumatlarin-eks-olundugu-icmal-hazirlanib-881708

"Kommunal xidmətlər (internet)" indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi 09.07.2024-cü ildə təsdiq olunub.

“Vergi və hesabatlılıq ” İşçi qrupunun fəaliyyəti

23.12.2024

apa.az

**Vergi və hesabatlılıq işçi qrupu statistik göstəriciləri açıqlayıb**

Son 3 ildə (01.10.2021-01.10.2024) artıq ödəmənin geri qaytarılması ilə bağlı daxil olan müraciətlərin sayı 4 251 təşkil edib. APA xəbər verir ki, bu, Vergi və hesabatlılıq işçi qrupunun məlumatında əksini tapıb. Qeyd edilib ki, biznes mühitinin müxtəlif sahələrinə dair qanunvericilik normaları və elektron dövlət xidmətləri barədə zəruri məlumatların əks olunduğu icmal hazırlanaraq nəşr olunub

“Vergitutma” indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi 02.04.2024-cü il tarixində təsdiq olunub

(https://azranking.az/public/images/Biznes%20sah%C9%99l%C9%99ri-icmal-01.11.2024.pdf).
İcmalın müvafiq bölmələri Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın aidiyyəti dövlət qurumlarının rəhbərlik etdiyi işçi qrupları tərəfindən tərtib olunub. Biznes sahələri üzrə qanunvericilik və inzibatçılıqla bağlı maraqlı tərəflərin məlumatlılıq səviyyəsinin artırılması məqsədilə icmalın bəzi hissələri təqdim olunur.
**Vergi nəzarəti** - büdcəyə vergilərin düzgün hesablanmasını, vaxtında və tam məbləğdə köçürülməsini, vergi qanunvericiliyinin riayət edilməsini təmin edən qanunla nəzərdə tutulmuş üsul və tədbirlərin məcmusudur.
Vergi orqanları vergi nəzarətini vergi ödəyicilərinin və vergitutma obyektlərinin uçotunu aparmaqla, uçot və hesabat məlumatlarını yoxlamaqla, əlaqəli məlumatları təhlil etməklə, vergi ödəyiciləri və digər şəxslər arasında sorğu aparmaqla, gəlir əldə etmək üçün istifadə olunan binalara (ərazilərə) baxış keçirməklə, yaxud həmin obyektlərin fəaliyyəti barədə məlumat toplamaqla və sair formalarda həyata keçirirlər.
Vergi yoxlaması vergi nəzarətinin əsas formasıdır. Vergi qanunvericiliyi ilə vergi yoxlamasının iki növü müəyyən edilmişdir - kameral və səyyar vergi yoxlamaları. Bununla yanaşı, vergi nəzarəti forması olaraq operativ vergi nəzarəti (OVN) tədbirləri də həyata keçirilir.
Kameral vergi yoxlaması vergi orqanı tərəfindən vergi ödəyicisinin fəaliyyət göstərdiyi məkana getmədən vergi ödəyicisinin fəaliyyəti haqqında vergi orqanında olan sənədlər və mənbəyi məlum olan məlumatlar əsasında aparılır. Kameral yoxlamalar zamanı vergi orqanı vergi ödəyicisi ilə canlı təmas etmir, bütün yoxlama mövcud olan və əldə edilə bilən məlumatların təhlili, mühasibat və vergi hesabatlarının müqayisəsi, göstəricilərin dəyişmə dinamikası və s. əsasında aparılır.
Səyyar vergi yoxlaması vergi orqanı tərəfindən vergi ödəyicisinin fəaliyyət göstərdiyi məkanda keçirilən vergi yoxlaması növüdür. Səyyar vergi yoxlaması növbəti və növbədənkənar formada ola bilir. 2023-cü ildə başa çatan səyyar vergi yoxlamalarının sayı 537 təşkil edib. Vergi ödəyicilərini əhatə baxımından bu çox aşağı göstəricidir və aktiv vergi ödəyicilərinin cəmi 1 faizindən də aşağı hissəni əhatə edib.
Səyyar vergi yoxlamaları zamanı vergi orqanı ilə vergi ödəyicilərinin görüşü yalnız bir dəfə hazırlanmış aktın müzakirəsi zamanı keçirilir. Vergi ödəyicisi ilə təmaslar səyyar yoxlama ilə bağlı hazırlanmış aktın müzakirəsi zamanı başlanır, şirkətlərin yüksək rəhbərliyinin iştirakı adətən yoxlamanın son dövrünə düşən müddəti əhatə edir. Vergi yoxlaması aktının bir nüsxəsi vergi ödəyicisinə və ya onun səlahiyyətli nümayəndəsinə verilmə tarixini təsdiq edən üsulla aktın tərtib edildiyi tarixdən sonra 5 gündən gec olmayaraq verilir və ya göndərilir.
Səyyar vergi yoxlamaları yalnız vergilərin ödənilməsindən yayınma hallarının olmasına dəqiq və əsaslı əlamətlər olduğu halda keçirildiyindən, onlar nəticəlidir və dövlət büdcəsinə əlavə vergi ödəmələrinin təmin olunmasına gətirir. Vergi əməkdaşlarının fəaliyyəti “Dövlət vergi orqanları əməkdaşlarının etik davranış” Qaydaları ilə tənzimlənir.
Operativ vergi nəzarəti vergi nəzarəti formaları içərisində çevik və effektiv nəzarət formasıdır. Operativ vergi nəzarəti sahibkarlıq fəaliyyəti ilə məşğul olan hüquqi və fiziki şəxslərin gəlir götürmək üçün istifadə etdikləri, yaxud vergi tutulan obyektlərin, anbar, ticarət və bu qəbildən olan digər binalarında, nəqliyyat vasitələrində həyata keçirilən vergi nəzarəti formasıdır.
**Operativ vergi nəzarəti** vergi orqanının əsaslandırılmış qərarı əsasında həyata keçirilir. Nəzarət tədbiri vergi ödəyicisinə əvvəlcədən xəbərdarlıq edilmədən başlanır və vergi

ödəyicilərinin faktiki iş vaxtı ərizndə həyata keçirilir. Bu nəzarətin həyata keçirilməsi qaydalarını, nəzarətlə əhatə olunan məsələləri Vergi Məcəlləsinin 50-ci maddəsi müəyyən edir. 2023-cü ilin nəticələrinə görə, aktiv vergi ödəyicilərinin yalnız 1 faizi operativ vergi nəzarəti ilə əhatə olunub.

Maliyyə ilində müəssisə üçün bütün vergi hesabatlarının hazırlanması, təqdim edilməsi və ödənilməsi üçün tələb olunan vaxt önəmli xarakter daşıyır. Qeyd ediməlidir ki, 2023-cü ildə mənfəət, ƏDV, sosial vergi və tutumlar üzrə bəyannamələrin təqdim edilməsi və ödənilməsi üçün tələb olunan ümumi illik vaxt göstəricisi 69,84 saat müəyyən edilib. Bütövlükdə bir ay ərzində orta müdət 5,82 saat təşkil edir.

Ölkəmizdə vergi bəyannamələrinin göndərilməsi və vergilərin ödənilməsi prosesi tamamilə elektronlaşdırılıb. Hər bir vergi ödəyicisi e-taxes.gov.az portalına daxil olaraq istənilən bəyannaməni elektron qaydada təqdim edə bilir. Azərbaycanda bəyannamələrin elektron göndərilməsi göstəricisi yüksəkdir. 2023-cü il ərzində bütün bəyannamələrin 96,89%-i elektron şəkildə təqdim olunub.

Maliyyə ilində müəssisələr tərəfindən vergi öhdəlikləri elektron şəkildə ödənib. Azərbaycan Respublikası Prezidentinin 16 dekabr 2016-ci il tarixli 461-VQ nömrəli "Nağdsız hesablaşmalar haqqında" qanununun tələblərinə əsasən vergilərin ödənilməsi yalnız nağdsız qaydada həyata keçirilməlidir. Bu səbəbdən ödənişlər ancaq elektron qaydada həyata keçirilir. Vergilərin ödənilməsi üçün lazımi məlumatlarla bu linklərdən tanış olmaq mümkündür.

Vergi Məcəlləsinin 179.1-ci maddəsinə əsasən hesabat dövründə vergi tutulan dövriyyəsinin azı 50 faizi sıfır dərəcəsi ilə vergiyə cəlb olunan vergi ödəyicisinə, hesabat dövründə əvəzləşdirilən vergi məbləğinin hesablanmış vergidən artıq olan hissəsi onun vergi və ya gömrük orqanlarına ərizəsini verdiyi vaxtdan 20 gün ərzində qaytarılır.

Vergi Məcəlləsinin 179.2-ci maddəsinə əsasən ƏDV ödəyiciləri üçün – əvəzləşdirilən vergi məbləğinin hesabat dövrü ərzində hesablanmış vergi məbləğindən artıq olan hissəsi vergi ödəyicisinin vergi və gömrük orqanlarına elektron formada ərizəsini verdiyi vaxtdan 4 aydan gec olmayaraq qaytarılır. VM-nin 179.2-ci maddəsinə əsasən 2023-cü ildə ərizəni təqdim etdiyi andan ƏDV-nin geri qaytarılmasına qədər olan orta müddət 7.4 həftə müəyyən edilib.

Müəssisənin ƏDV-nin qaytarılması üçün müraciət etməsinə ehtiyac yoxdur. İxrac fəaliyyəti ilə məşğul olan vergi ödəyicilərinin artıq ödəmə məbləğləri barədə ərizələr vergi orqanı tərəfindən hazırlanaraq hər ay təsdiqlənib göndərilməsi üçün vergi ödəyicilərinə təqdim edilir. Bu zaman vergi ödəyicisinə artıq

"Vergitutma" indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi 02.04.2024-cü il tarixində təsdiq olunub

ödənilmiş məbləğlərin qaytarılması çevik şəkildə və heç bir nəzarət tədbirlərinə məruz qalmadan təmin edilir. Digər fəaliyyət istiqamətləri üzrə Vergi Məcəlləsinin 87-ci maddəsinə əsasən artıq ödənilmiş məbləğlər digər vergilərin, faizlərin, maliyyə sanksiyalarının və inzibati cərimələr üzrə borcların və vergi ödəyicisinin razılığı ilə sonrakı öhdəliklər üzrə ödəmələrin hesabına aid edildiyindən qaytarılmır.
Son 3 ildə (01.10.2021-01.10.2024) artıq ödəmənin geri qaytarılması ilə bağlı daxil olan müraicətlərin sayı 4.251 təşkil edib. Müraciətlərin icra vəziyyəti barədə statistik məlumatlar DVX-nin rəsmi internet saytında yerləşdirilib Həmin məlumatla aşağıdakı linkə keçid etməklə tanış olmaq mümkündür:
https://www.taxes.gov.az/az/page/muracietler-barede-melumat
Bu mövzuda daha ətraflı məlumatla Biznes mühitinin müxtəlif sahələrinin tənzimlənməsi çərçivələri və elektron xidmətlər barədə İcmal sənədində (səhifə 24–25) tanış ola bilərsiniz.
Qeyd edək ki, Azərbaycan Respublikasının Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyasının Vergi və hesabatlılıq işçi qrupuna Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti rəhbərlik edir (https://azranking.az/working-groups).

**Mənbə:**

https://apa.az/maliyye/vergi-ve-hesabatliliq-isci-qrupu-statistik-gostericileri-aciqlayib-881706

## Digər saytlar və portallar

1. https://fed.az/az/diger/vergi-ve-hesabatliliq-isci-qrupu-statistik-gostericileri-aciqlayib-218613
2. https://525.az/news/282824-vergi-ve-hesabatliliq-isci-qrupu-statistik-gostericileri-aciqlayib

"Vergitutma" indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi 02.04.2024-cü il tarixində təsdiq olunub

3. https://azertag.az/xeber/biznes_muhitinin_muxtelif_sahelerine_dair_icmalda_vergi_qanunvericiliyi_ve_inzibatchiligina_genis_yer_verilib-3344119
4. https://sedanews.az/gundem/7481-vergi-v-hesabatllq-ici-qrupu-statistik-gostricilri-acqlayb.html
5. https://sizinxeber.az/economy/maliyy/56271-vergi-v-hesabatllq-ii-qrupu-statistik-gstricilri-aqlayb.html

**“Su şəbəkəsinə qoşulma” İşçi qrupunun məlumatı**

**23.12.2024**

report.az

**İcmal: Azərbaycanda su təchizatında yaranmış fasilələrin orta müddəti 1,98 saat təşkil edib**

Biznes mühitinin su təchizatı və kanalizasiya xidmətləri də daxil olmaqla müxtəlif sahələrinə aid qanunvericilik normaları və elektron dövlət xidmətləri haqqında icmal hazırlanıb.
"Report" xəbər verir ki, bu icmalın müvafiq bölmələri Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın aidiyyəti dövlət qurumlarının rəhbərlik etdiyi işçi qrupları tərəfindən tərtib edilib.
Hesabata görə, icmalın məqsədi biznes sahələri üzrə qanunvericilik və inzibatçılıqla bağlı maraqlı tərəflərin məlumatlılıq səviyyəsini artırmaqdır. Qanunvericiliyə əsasən, su təchizatı və tullantı sularının axıdılması sisteminə (STTSAS) qoşulma üçün müraciətlər xidmət nöqtələrindən, yəni “ASAN Kommunal”, “ASAN xidmət” mərkəzləri və Kiçik və Orta Biznes (KOB) evləri (sahibkarlıq subyektləri üçün) tərəfindən verilə bilər.
Tikinti obyektinin STTSAS-yə qoşulması, müraciət tarixindən etibarən 30 gün ərzində təmin edilməlidir. Xidmət haqqı isə Tarif (qiymət) Şurasının qərarlarına uyğun olaraq ödənilir. Tarif (qiymət) Şurasının 30 yanvar 2021-ci il tarixli 5 nömrəli qərarına əsasən, su təchizatı xidmətlərinin tarifləri (1 kubmetr üçün) Bakı, Sumqayıt, Xırdalan şəhərləri və Abşeron rayonunda əhali istehlakçı qrupu üçün 70 qəpik, digər inzibati ərazilərdə əhali istehlakçı qrupu üçün 60 qəpik, qeyri-əhali istehlakçı qrupu üçün isə 1 manat təşkil edir. Tullantı sularının axıdılması xidmətlərinin tarifləri (1 kubmetr üçün) əhali istehlakçı qrupu üçün 30 qəpik, qeyri-əhali istehlakçı qrupu üçün isə 1 manat təşkil edir.
2023-cü il ərzində respublika üzrə istehlakçılar üçün su təchizatında yaranmış fasilələrin orta müddəti (SAIDI) 1,98 saat, fasilələrin orta sayı (SAIFI) - 0,24 dəfə olub.
“Sudan istifadə Qaydaları”na əsasən, istehlakçılar ilə su təchizatı müəssisəsi arasında hesablaşmalar balans mənsubiyyəti sərhədində quraşdırılan müvafiq suölçən cihaz vasitəsilə aparılır. Standartlara uyğun olmayan

“Kommunal xidmətlər (su təchizatı)” indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi 20.05.2024-cü ildə təsdiq olunub.

suölçən cihazların və digər ölçmə vasitələrinin quraşdırılması qadağandır.

**Mənbə:**

https://report.az/infrastruktur/icmal-azerbaycanda-su-techizatinda-yaranmis-fasilelerin-orta-muddeti-1-98-saat-teskil-edib/

## Digər saytlar və portallar

1. https://report.az/ru/infrastruktura/obzor-v-azerbajdzhane-srednyaya-prodolzhitelnost-pereboev-v-vodosnabzhenii-sostavila-1-98-chasa/
2. https://qafqazinfo.az/news/detail/456897
3. https://elchi.az/icmal-azerbaycanda-su-techizatinda-yaranmis-fasilelerin-orta-muddeti-1-98-saat-teskil-edib
4. https://www.azerbaycan24.com/ru/obzor-v-azerbaydzhane-srednyaya-prodolzhitelynosty-pereboev-v-vodosnabzhenii-sostavila-1-98-chasa/#google_vignette
5. https://nedelia.az/ru/news/94978/obzor-v-azerbaydzhane-srednyaya-prodolzhitelnost-pereboev-v-vodosnabzhenii-sostavila-198-chasa

“Kommunal xidmətlər (su təchizatı)” indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi 20.05.2024-cü ildə təsdiq olunub.

**“Sərhəddə ticarət üzrə dövlət xidmətlərinin səmərəliliyinin artırılması” altqrupunun fəaliyyəti**

**23.12.2024**

oxu.az

## Biznes mühitinin müxtəlif sahələrinə dair qanunvericilik normaları barədə İCMAL hazırlandı

Biznes mühitinin müxtəlif sahələrinə dair qanunvericilik normaları və elektron dövlət xidmətləri barədə zəruri məlumatların əks olunduğu icmal hazırlanaraq nəşr olunub. Oxu.Az xəbər verir ki, bu barədə Azərbaycan Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyasının Beynəlxalq ticarət işçi qrupu məlumat yayıb. Qeyd olunub ki, icmalın müvafiq bölmələri Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyanın aidiyyəti dövlət qurumlarının rəhbərlik etdiyi işçi qrupları tərəfindən tərtib olunub. Biznes sahələri üzrə qanunvericilik və inzibatçılıqla bağlı maraqlı tərəflərin məlumatlılıq səviyyəsinin artırılması məqsədilə icmalın bəzi hissələri təqdim olunur.

**Beynəlxalq ticarət**

2023-cü il ərzində Azərbaycan Respublikası ərazisindən ixrac olunan mallar aşağıda qeyd edilən nəqliyyat vasitələri ilə daşınıb (çəki və statistik dəyər üzrə):

| Daşınma vasitəsi | | İxrac | | | |
|---|---|---|---|---|---|
| | | Netto (ton) | Netto çəkiyə görə %-lə | Statistik dəyər (min AB$ dol) | Statistik dəyərə görə %-lə |
| 10 | Dəniz nəqliyyatı vasitələri | 78913,19 | 0,15 | 182468,79 | 0,54 |
| 20 | Dəmiryolu nəqliyyatı vasitələri | 3255397,46 | 6,35 | 1151519,71 | 3,40 |
| 30 | Avtomobil nəqliyyatı vasitələri | 2027048,72 | 3,95 | 1828509,87 | 5,39 |
| 40 | Hava nəqliyyatı vasitələri | 86782,01 | 0,17 | 340173,20 | 1,00 |
| 50 | Poçt göndərişi | 8,94 | 0,00 | 3697,68 | 0,01 |
| 70 | Stasionar nəql etmə vasitələri | 45833913,99 | 89,37 | 30385753,52 | 89,64 |
| 90 | Özü hərəkət edən vasitələr | 1001,36 | 0,00 | 6295,95 | 0,02 |
| Yekun: | | 51283065,67 | 100,00 | 33898418,71 | 100,00 |

Malların Azərbaycan Respublikası ərazisindən ixrac olunması zamanı müddət hesablanarkən aşağıda qeyd olunan mərhələlər nəzərə alınmalıdır:

- gömrük orqanından asılı olmayan müddətlər istisna olmaqla (qeyri-iş günləri, istirahət günləri, bəyannamənin geri qaytarılması, ekspertiza üçün göndərilməsi və ödənişlərin ödənilməsi üçün tələb olunan müddət) malların ixracı zamanı ixrac gömrük bəyannaməsinin gömrük orqanına göndərildiyi (Status: rəsmiləşdirmək üçün göndərildi) müddətdən bəyannamənin təsdiq olunduğu tarixədək olan müddət (Status:

Sərhəddə ticarət üzrə dövlət xidmətlərinin səmərəliliyinin artırılması ilə bağlı 2024-cü il üçün Yol Xəritəsi 29.02.2024-cü il tarixində təsdiq olunub

GB təsdiqləndi və sərhəd gömrük orqanına buraxılış üçün göndərildi);
- malların dövlət sərhədindən buraxılış məntəqəsinə çatdırıldığı müddətdən yükün buraxılışının gömrük orqanı tərəfindən təsdiq edildiyi (Yük buraxıldı) tarixədək olan müddət.
INCOTERMS (Beynəlxalq ticarət sövdələşməsi) - Məhsulların satışı və çatdırılması üzrə imzalanan xarici və yerli müqavilələr çərçivəsində tərəflərin müvafiq öhdəlikləri, o cümlədən xərc və risklərin müəyyənləşdirilməsi ilə əlaqədar qəbul olunmuş beynəlxalq standartlardan ibarətdir. Bu qaydalar məhsulun satıcıdan alıcıya çatdırılması zamanı qeyd olunan məsələlər üzrə tərəflər arasındakı münasibətləri tənzimləyir.
- FCA (Free Carrier - satıcının ölkəsində razılaşdırılmış yer) - Satıcı malları ixrac üçün hazır etməli və Alıcı tərəfindən müəyyən olunmuş yerdə malları alıcının təyin etdiyi daşıyıcıya təhvil verməlidir. FCA-də razılaşdırılmış yer dəniz limanından başqa istənilən məkan, hava limanı və ya dəmir yolu ola bilər. Razılaşdırılmış yer satıcının anbarı da ola bilər.
- DAP (Delivered at Place - alıcının ölkəsində razılaşdırılmış yer) - Satıcı alıcının ölkəsindəki terminaldan kənarda olan razılaşdırılmış yerə çatdırılma üçün bütün xərclərə və risklərə görə məsuliyyət daşıyır. Satıcı malları təhvil verməyi etməyi, razılaşdırılmış yerdə malları boşaltmağı öhdəsinə götürür. Ödənişə daxildir: DAT xərci + razılaşdırılmış yerə çatdırılma + razılaşdırılmış yerdə boşaldılma. Satıcının öhdəliyi bitir: boşaltma limanında mallar boşaldıldıqda.
Müəssisələr istehsal etdikləri məhsulları üç formada reallaşdırırlar:
- daxili bazarda satış;
- digər ölkəyə ixrac;
- digər ölkəyə ixrac məqsədilə 3-cü tərəfə satış.
Dövlət Gömrük Komitəsi tərəfindən 2023-cü ilin fevralından etibarən ixrac zamanı sərhəddə yük nəqliyyat vasitələri üçün elektron növbə sistemi tətbiq olunmağa başlanıb. Bu sistemin əsas üstünlüklərindən biri sərhəd-gömrük postlarında gözləmə müddətlərini azaltmaq və gömrük əməliyyatlarını daha səmərəli hala gətirməkdir. Elektron növbə sisteminin tətbiqi nəticəsində yükdaşımalar daha planlı şəkildə həyata keçirilir ki, bu da sərhəd-keçid məntəqələrində tıxacların qarşısını alır və daha sürətli keçid imkanı yaradır. Bundan əlavə, sözügedən sistem vasitəsilə növbələr real vaxtda izlənə bilər və bu da nəticə etibarilə resursların daha effektiv şəkildə idarə olunmasına və gömrük proseslərinin sürətlənməsinə imkan yaradır.
Xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal və ixrac olunan mallar üzrə gömrük rüsumlarının dərəcələri Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikasının

xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"nin təsdiq edilməsi haqqında 17 noyabr 2017-ci il tarixli 500 nömrəli Qərarı ilə tənzimlənir.

Gömrük orqanları tərəfindən həyata keçirilən xidmətlərə və hüquqi hərəkətlərə görə alınan gömrük yığımlarının məbləği "Gömrük yığımlarının məbləğləri"nin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 26 aprel 2016-cı il tarixli 168 nömrəli Qərarı ilə tənzimlənir.

2024-cü ilin yanvarından etibarən Dövlət Gömrük Komitəsi tərəfindən süni intellekt əsaslı Avtomatlaşdırılmış Risk Analizi Sistemi (ARAS) tətbiq edilməkdədir. ARAS məlumatların öncədən emalı hesabına yük və nəqliyyat vasitələrinin sürətli sərhəd keçidinə, çevik gömrük rəsmiləşdirilməsinə şərait yaradan, biznes subyektlərinin əməliyyat xərclərini azaldan süni intellekt əsaslı maşın öyrənmə alqoritmləri ilə işləyən Avtomatlaşdırılmış Risk Analizi Sistemidir. Sözügedən sistemin tətbiqi nəticəsində xarici ticarət iştirakçılarının, daşıyıcıların, malların (nəqliyyat vasitələrinin) müvafiq indikatorlar üzrə risk profili müəyyən edilməklə onlara sərhəd keçidi və gömrük rəsmiləşdirilməsi proseduru, həmçinin mallar ölkə ərazisinə daxil olanadək onlar üçün müvafiq dəhliz (yaşıl, sarı, mavi, qırmızı) və mal buraxılış qaydası risk mühərriki vasitəsilə müəyyən edilir.

Sistemin tətbiqi nəticəsində ötən ilin və cari ilin yanvar-sentyabr ayları üzrə idxal-ixrac əməliyyatları ilə əlaqədar vaxt və xərclərin səmərəliliyinin qiymətləndirilməsi ilə bağlı monitorinq və təhlillər aparılıb. Aparılan təhlillərin nəticəsində müəyyən edilmişdir ki, sərhədkeçmə komponenti üzrə sərhədkeçmə müddəti çərçivəsində nəqliyyat vasitələrinin qeydiyyatının aparılmasına sərf olunan vaxt ötən ilin müvafiq dövrü ilə müqayisədə 53% müsbət dinamika ilə müşahidə olunmaqla 55 (əlli beş) dəqiqədən 26 (iyirmi altı) dəqiqəyə endirilib. Eyni zamanda, qeydiyyat prosesi 30 (otuz) dəqiqəyədək tamamlanan nəqliyyat vasitələrinin payında da artım müşahidə olunub. Ümumi nəqliyyat vasitələrinin 49%-nin qeydiyyatının 30 (otuz) dəqiqə ərzində tamamlandığını nəzərə alsaq, bu ilin müvafiq dövründə artıq 66% faiz nəqliyyat vasitəsinin qeydiyyatı tamamlanıb ki, bu da 18% müsbət dinamikanın göstəricisidir.

Bu mövzuda daha ətraflı məlumatla Biznes mühitinin müxtəlif sahələrinin tənzimlənməsi çərçivələri və elektron xidmətlər barədə İcmal sənədində (səhifə 8-10) tanış ola bilərsiniz.

Qeyd edək ki, Azərbaycan Respublikasının Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyasının Beynəlxalq ticarət işçi qrupuna Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Sərhəddə ticarət üzrə dövlət xidmətlərinin səmərəliliyinin

Sərhəddə ticarət üzrə dövlət xidmətlərinin səmərəliliyinin artırılması ilə bağlı 2024-cü il üçün Yol Xəritəsi 29.02.2024-cü il tarixində təsdiq olunub.

artırılması altqrupuna Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi rəhbərlik edir.

**Mənbə:**
https://oxu.az/iqtisadiyyat/biznes-muhitinin-muxtelif-sahelerine-dair-qanunvericilik-normalari-barede-icmal-hazirlandi

### Digər saytlar və portallar

1. https://bizim.media/az/iqtisadiyyat/226535/azerbaycandan-ixrac-olunan-mallar-en-cox-hansi-neqliyyatla-dainib/

## fed.az

### Gömrükdə sahibkarlar üçün güzəştlər tətbiq ediləcək – MÜSAHİBƏ

Gömrükdə rüsumdan azad olunan minimum məbləğ və sahibkarlar üçün güzəştlər tətbiq ediləcək. Azərbaycandan keçən nəqliyyat dəhlizlərinin tranzit potensialının inkişaf etdirilməsi, xarici ticarət əməliyyatlarının sürətli və maneəsiz şəkildə həyata keçirilməsi və sahibkarlıq subyektləri üçün əlverişli biznes mühitinin yaradılması məqsədilə ölkə rəhbəri tərəfindən bir sıra islahatlar həyata keçirilməkdədir.
Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" 2016-cı il 13 iyul tarixli 2199 nömrəli Sərəncamı əsasında Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın yaradılması da bu sahədə həyata keçirilən tədbirlərə mühüm töhfə verməkdədir (https://azranking.az/).
Komissiya çərçivəsində sahibkarlıq fəaliyyətinin optimal gəlirliliyini təmin edəcək və rəqabət prinsiplərinə əsaslanacaq biznes mühitinin yaradılması, ölkənin investisiya cəlbediciliyinin artırılması, həmçinin beynəlxalq reytinqlərdə Azərbaycanın mövqeyinin daha da yaxşılaşdırılması üçün qanunvericiliyin və inzibatçılığın təkmilləşdirilməsi istiqamətində məqsədyönlü addımlar atılmaqdadır.
Qarşıya qoyulan hədəflərə nail olmaq və prioritet tədbirlərin vaxtında icrasını təmin etmək məqsədilə aidiyyəti dövlət orqanları və özəl sektorun nümayəndələrindən, müəssisə və təşkilatların mütəxəssislərindən, müstəqil ekspertlərdən ibarət müxtəlif işçi qrupları və altqruplar yaradılmışdır ki, bunlardan biri də "Beynəlxalq ticarət" işçi qrupunun tərkibində fəaliyyət göstərən "Sərhəddə ticarət üzrə dövlət xidmətlərinin səmərəliliyinin artırılması" altqrupudur.

Sərhəddə ticarət üzrə dövlət xidmətlərinin səmərəliliyinin artırılması ilə bağlı 2024-cü il üçün Yol Xəritəsi 29.02.2024-cü il tarixində təsdiq olunub.

Bu sahədə həyata keçirilən işlər və gözlənidən yeniliklərlə bağlı FED.az-ın suallarını Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın “Sərhəddə ticarət üzrə dövlət xidmətlərinin səmərəliliyinin artırılması” altqrupunun katibi **Məhəmməd Nəcəfli** cavablandırır.

***- Məhəmməd müəllim, Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın tərkibində fəaliyyət göstərən “Sərhəddə ticarət üzrə dövlət xidmətlərinin səmərəliliyinin artırılması” altqrupunun əsas fəaliyyəti nədən ibarətdir?***

- “Sərhəddə ticarət üzrə dövlət xidmətlərinin səmərəliliyinin artırılması” altqrupunun əsas fəaliyyət istiqaməti ölkəmizin sosial-iqtisadi inkişafının əsas struktur elementlərindən olan dövlət-biznes dialoqunun gücləndirilməsi və sahibkarlıq fəaliyyətinin optimal gəlirliliyini təmin etməklə rəqabət prinsiplərinə əsaslanacaq biznes mühitinin yaradılmasının inkişaf etdirilməsidir. Altqrupa üzv olan dövlət qurumları və özəl sektor nümayəndələrinin iştirakı ilə Dünya Bankı Qrupunun “Business Ready” hesabatı üzrə “Beynəlxalq ticarət” sorğu vərəqəsi təhlil edilmiş, özəl sektor nümayəndələrinin təklif və təşəbbüsləri nəzərə alınmaqla cari ilin fevral ayında “Sərhəddə ticarət üzrə dövlət xidmətlərinin səmərəliliyinin artırılması” altqrupunun 2024-cü il üçün Yol Xəritəsi təsdiq edilmişdir

Sərhəddə ticarət üzrə dövlət xidmətlərinin səmərəliliyinin artırılması ilə bağlı 2024-cü il üçün Yol Xəritəsi 29.02.2024-cü il tarixində təsdiq olunub.

(https://azranking.az/public/images/Serhedde%20Yol%20X%C9%99rit%C9%99si%2027.02.24.-Yekun.pdf).

***- Yol xəritəsində əsasən hansı məsələlər əksini tapıb, yəni qrupda hansı əsas tədbirlər üzərində iş aparılır?***

- Yol xəritəsi müxtəlif istiqamətləri və bu istiqamətlər üzrə görüləcək işləri əhatə edir. Sənəd 3 əsas bölmədən ibarətdir, buraya (1) qanunvericilik bazasının keyfiyyəti və əhatə dairəsi, (2) dövlət xidmətlərinin keyfiyyəti və (3) beynəlxalq ticarətin səmərəliliyi aiddir. Yol Xəritəsində beynəlxalq ticarət fəaliyyəti ilə bağlı həyata keçirilən rəqəmsal əməliyyatlar, yükdaşıma və logistika sahəsini tənzimləyən normativ-hüquqi aktlarla əlaqədar biznes subyektlərinin məlumatlandırılması, sərhəd və risk idarəçiliyinin təkmilləşdirilməsi, Səlahiyyətli İqtisadi Operator (SİO) institutunun tətbiqi, elektron “bir pəncərə” sistemi və digər istiqamətlər üzrə ümumilikdə 32 (otuz iki) tədbir öz əksini tapıb.

***- Qeyd etdikləriniz həm ölkə iqtisadiyyatı, xarici ticarət, həm də iş adamlarının fəaliyyəti baxımından maraqlı tədbirlərdir. Bu tədbirlərlə bağlı hansı işlər görülüb?***

- Artıq bir sıra tədbirlərin icrası istiqamətində zəruri işlər görülmüşdür. Belə ki, ölkə ərazisinə müvəqqəti gətirilən malların gömrük tənzimlənməsinin sadələşdirilməsi və səmərəli gömrük nəzarətinin həyata keçirilməsi məqsədilə “Müvəqqəti idxal haqqında İstanbul Konvensiyası”na üzvolma ilə bağlı hazırlanmış əsaslandırma sənədi və təhlil materialları müvafiq təkliflərlə birlikdə Dövlət Gömrük Komitəsi tərəfindən Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edilmişdir.

***- Məhəmməd müəllim, bu tədbirlər çərçivəsində idxal-ixrac əməliyyatlarının sadələşdirilməsi və güzəştlərin tətbiq edilməsi ilə bağlı hansı yeniliklər gözlənilir?***

- İdxal-ixrac əməliyyatları üzrə bəzi kateqoriyaya daxil edilən mallara güzəşt və sadələşdirilmənin tətbiq edilməsi məqsədilə “de minimis” məbləğinin müəyyənləşdirilməsi

istiqamətində müvafiq addımlar atılıb. Bundan başqa, mikroixracatçılara dəstəyin verilməsi məqsədilə müəyyən hədlər daxilində idxal olunan malların gömrük ödənişlərindən, ixrac olunan malların isə gömrük yığımlarından azad edilməsini tənzimləyən normativ hüquqi akt layihələri Dövlət Gömrük Komitəsi tərəfindən hazırlanaraq Nazirlər Kabinetinə təqdim edilmişdir.

***- Yol Xəritəsində nəzərdə tutulan tədbirlərin bir qismi sahibkarlvrın və vətəndaşların məlumatlandırılması, gömrük prosedurlarının şəffaflaşdırılmasıdır. Bu istiqamətdə hansı işlər görülüb?***

- Eyni zamanda, Dövlət Gömrük Komitəsinin rəsmi internet səhifəsində malların idxalı, ixracı və tranzit daşınması, rəqəmsal ticarət, həmçinin xidmətlər üzrə ticarətlə bağlı müvafiq qanunvericilik layihələrinin ictimaiyyətə açıqlanması, maraqlı tərəflərdən şərhlərin qəbul edilməsi və onların cavablandırılması proseslərini özündə ehtiva edən vahid platforma yaradılmışdır (https://customs.gov.az/az/sahibkarlar-ucun/serhedde-ticaret).

***- Yol xəritəsində gömrük sahəsində nəzərdə tutulan mühüm tədbirlərdən biri də Səlahiyyətli İqtisadi Operator (SİO) institutunun yaradılması, yəni bir sıra şirkətlərə bu səlahiyyətin verilməsidir. Ölkəmiz üçün kifayət qədər ciddi yeni təcrübədir. Bildiyimiz qədər, bu sahədə ilk addımların atılmasına başlanılıb…***

- Doğrudan da, Yol xəritəsində nəzərdə tutulan mühüm tədbirlərdən biri ölkəmizdə Səlahiyyətli İqtisadi Operator (SİO) institunun tətbiqi ilə bağlıdır. Bu məqsədlə SİO sahəsində əməkdaşlıq ediləcək prioritet ölkələrin siyahısı müəyyənləşdirilərək əməkdaşlığın hüquqi bazasının formalaşdırılması üçün qarşılıqlı tanınma sazişlərinin imzalanması imkanları təhlil edilmişdir. Görülən işlərin davamı olaraq Özbəkistan Respublikası və Rusiya Federasiyası ilə imzalanacaq saziş layihələrinin mətni hazırlanmış, Gürcüstanla işçi qaydada müzakirələr davam etdirilməkdədir.

***- Məhəmməd müəllim, xarici iqtisadi fəaliyyətlə məşğul olan iş adamlarının tez-tez səsləndirdiyi məsələlərdən biri gömrük rəsmiləşdirilməsi və digər prosedurlar zamanı digər dövlət qurumlarından çoxsaylı sənədlərin tələb olunmasına aiddir. Bu prosesin daha da sadələşdirilməsi üçün hansı yeniliklər nəzərdə tutulur?***

- Ölkəmizdə idxal-ixrac əməliyyatlarının asan və sürətli şəkildə həyata keçirilməsi ilə yanaşı vətəndaş məmnunluğunun və şəffaflığın artırılmasında mühüm rol oynayacaq elektron “bir pəncərə” sisteminin tətbiqi Gömrük Komitəsinin qarşısındakı prioritet hədəflərdəndir. Sözügedən sistem vasitəsilə dövlət orqanları və ticarət tərəfdaşları arasında əlaqələndirmə

Sərhəddə ticarət üzrə dövlət xidmətlərinin səmərəliliyinin artırılması ilə bağlı 2024-cü il üçün Yol Xəritəsi 29.02.2024-cü il tarixində təsdiq olunub.

prosesinin keyfiyyətli təşkili təmin olunacaqdır ki, bununla əlaqədar zəruri tədbirlər görülməkdədir.

**Mənbə:**

https://fed.az/az/diger/beynelxalq-reytinqlerde-azerbaycanin-movqeyinin-guclendirilmesi-ucun-heyata-keci%CC%87ri%CC%87len-tedbi%CC%87rler-aciqlandi-musahi%CC%87be-218615

**“Tikintiyə icazələrin verilməsi” İşçi qrupunun məlumatı**

**23.12.2024**

bizimmedia.az

## Tikintiyə icazələrin verilməsi hansı qaydada APARILIR? – RƏSMİ PROSEDUR

Biznes mühitinin müxtəlif sahələrinə dair qanunvericilik normaları və elektron dövlət xidmətləri barədə zəruri məlumatların əks olunduğu icmal hazırlanaraq nəşr olunub.
Bizim.Media xəbər verir ki, icmalın müvafiq bölmələri Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın aidiyyəti dövlət qurumlarının rəhbərlik etdiyi işçi qrupları tərəfindən tərtib olunub.
Biznes sahələri üzrə qanunvericilik və inzibatçılıqla bağlı maraqlı tərəflərin məlumatlılıq səviyyəsinin artırılması məqsədilə icmalın bəzi hissələrini təqdim edirik:

**Tikintiyə və istismara icazə**

Qanunvericiliyə əsasən tikinti obyektlərinin tikintisinə və istismarına icazə, habelə məlumatlandırma icraatları “Elektron Tikinti Portalı” vasitəsilə yalnız elektron qaydada “bir-pəncərə” prinsipi əsasında həyata keçirilir. Bunun üçün sifarişçi və ya vətəndaş //e-tikinti.gov.az/ portalı üzərindən ərizə ilə icazə verən orqana müraciət etməlidir.
Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin 75.10-cu maddəsinə əsasən müvafiq icra hakimiyyəti orqanı (qurum), layihəsinin ekspertizadan keçirilməsi tələb olunan tikintiyə dair ərizəyə aidiyyəti qurumlardan daxil olmuş rəyləri nəzərə almaqla, 1 ay (Məcəllənin 90.2-ci maddəsində ekspertiza müddətinin uzadılması üçün nəzərdə tutulan hallar istisna olmaqla) müddətində baxır və tikintiyə icazə verir və ya icazə verilməsindən imtina edilməsi barədə qərar qəbul edir.
Şəhərsalma və tikintiyə dair normativ sənədlərin tələblərinə əməl olunmasını təmin etmək məqsədilə tikintiyə icazədə siyahısını və tətbiqi hallarını müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi əlavə şərtlər də nəzərdə tutulur.
Məcəllənin 75.8-ci maddəsinə əsasən müvafiq icra hakimiyyəti orqanı (qurum), layihəsinin ekspertizadan keçirilməsi tələb olunmayan tikintiyə dair ərizəyə aidiyyəti qurumlardan daxil olmuş rəyləri nəzərə almaqla 15 iş günü müddətində baxır və tikintiyə icazə verir və ya icazə verilməsindən imtina edilməsi barədə qərar qəbul edir.

“Biznesin yerləşdiyi yer (tikintiyə icazələrin verilməsi)” indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi 15.07.2024-cü ildə təsdiq olunub.

Tikintiyə icazə verilməsi üçün sifarişçinin hər hansı ödəniş etməsi nəzərdə tutulmur, tikinti obyektinin istismarına icazənin verilməsi üçün müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilən hüquqi hərəkətlərə görə 60 manat dövlət rüsumu tələb olunur.
Azərbaycan Respublikası Şəhərsalma və Tikinti Məcəlləsinin 102.4-cü maddəsinə uyğun olaraq, tikinti obyektinin istismarına icazənin verilməsi üçün müraciətin təqdim edildiyi gündən 20 gün, ekspertizası keçirilməsi tələb olunmayan tikinti layihələrinə münasibətdə 10 gün müddətində obyektin istismarına icazə verilir.
Bu mövzuda daha ətraflı məlumatla Biznes mühitinin müxtəlif sahələrinin tənzimlənməsi çərçivələri və elektron xidmətlər barədə İcmal sənədində (səhifə 18–19) tanış ola bilərsiniz. Qeyd edək ki, Azərbaycan Respublikasının Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyasının "Tikintiyə icazələrin verilməsi" işçi qrupuna Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi rəhbərlik edir.

**Mənbə:**

https://bizim.media/az/cemiyyet/226536/tikintiye-icazelerin-verilmesi-hansi-qaydada-aparilir-ndash-rsm-prosedur/

**Digər saytlar və portallar**

1. https://avtosfer.az/az/oxucu-mektublari/tikintiye-icaze-bele-verilir-her-hansi-odenis-yoxdur-266526
2. https://azpost.info/tikintiy%c9%99-icaz%c9%99-bel%c9%99-verilir/
3. https://qafqazinfo.az/news/detail/tikintiye-icaze-bele-verilir-her-hansi-odenis-yoxdur-456896
4. https://www.cebheinfo.az/iqtisadiyyat/tikintiye-icaze-bele-verilir-her-hansi-odenis-yoxdur_129
5. https://www.azerbaycan24.com/tikintiye-icaze-bele-verilir-her-hansi-odenis-yoxdur/

"Biznesin yerləşdiyi yer (tikintiyə icazələrin verilməsi)" indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi 15.07.2024-cü ildə təsdiq olunub.

**"Elektrik təchizatı şəbəkələrinə qoşulma" İşçi qrupunun fəaliyyəti**

**23.12.2024**

azertag.az

**Biznes mühitinin müxtəlif sahələrinə dair icmal hazırlanıb**

Biznes mühitinin müxtəlif sahələrinə dair qanunvericilik normaları və elektron dövlət xidmətləri barədə zəruri məlumatların əks olunduğu icmal hazırlanaraq nəşr olunub.

Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyanın Elektrik təchizatı şəbəkələrinə qoşulma işçi qrupundan AZƏRTAC-a verilən məlumata görə, icmalın müvafiq bölmələri Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın aidiyyəti dövlət qurumlarının rəhbərlik etdiyi işçi qrupları tərəfindən tərtib olunub. Biznes sahələri üzrə qanunvericilik və inzibatçılıqla bağlı maraqlı tərəflərin məlumatlılıq səviyyəsinin artırılması məqsədilə icmalın bəzi hissələri təqdim edilir.

**Elektrik təchizatı şəbəkəsinə qoşulma**

Elektrik təchizatı şəbəkəsinə (ETŞ) qoşulma üzrə müraciət "Azərişıq" ASC tərəfindən yaradılmış informasiya sistemi, habelə birbaşa, poçt və ya elektron poçt vasitəsilə həyata keçirilir. Bunun üçün vətəndaşlar https://e-gov.az/ portalı və ya https://e-ervice.azerishiq.az/ saytı üzərindən müraciət edə bilərlər.

Qanunvericiliyə əsasən, məişət abonentlərinin və tələb olunan gücü 200 kVt-a qədər olan (200 kVt da daxil olmaqla mövcud 0,4 kV-luq şəbəkədən) mövcud və ya inşa ediləcək tikinti obyektlərinin ETŞ-yə qoşulması sifarişçinin müraciət etdiyi tarixdən etibarən 20 gündən gec olmayaraq təmin edilir.

Tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulma xidmətinə görə ödənişin məbləğləri Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının "Tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulma xidmətinə görə ödəniş məbləğlərinin tənzimlənməsi barədə" 2024-cü il 3 iyun tarixli 4 nömrəli Qərarı ilə müəyyən olunub.

"Elektrik enerjisinin ölkədaxili tariflərinin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının 2021-ci il 16 oktyabr tarixli 14 nömrəli Qərarına əsasən, ölkədə qeyri-əhali istehlakçı qrupu (bu Qərarın 8-ci bəndində göstərilən istehlakçılar istisna olmaqla), o cümlədən ticarət və xidmət üzrə elektrik enerjisinin pərakəndə satış tarifi bir kilovat-saata görə 11 qəpik, digərləri üzrə isə 10 qəpik müəyyən edilib.

Əhali istehlakçı qrupu üzrə elektrik enerjisinin pərakəndə satış tarifi aylıq istehlak həcminin 200 kVts-a qədər (200 kVts daxil) olan hissəsi üçün bir kilovat-saata görə 8 qəpik, aylıq istehlak

(elektrik)" indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi 14.03.2024-cü tarixində təsdiq olunub.

həcminin 200 kVts-dan 300 kVts-a qədər (300 kVts daxil) olan hissəsi üçün bir kilovat-saata görə 9 qəpik, aylıq istehlak həcminin 300 kVts-dan çox olan hissəsi üçün bir kilovat-saata görə 13 qəpik müəyyən olunub.

Paytaxt Bakı şəhəri üzrə 2023-cü il ərzində orta hesabla istehlakçıya elektrik enerjisinin verilişində yaranmış fasilənin müddəti (SAIDI) 0,852 saat təşkil edib. Ötən il ərzində orta hesabla istehlakçıya elektrik enerjisinin verilişində yaranmış fasilənin sayı isə (SAIFI) 0,924 dəfə olub. 2022-ci il ərzində SAIDI göstəricisi 0,818 saat, SAIFI göstəricisi isə 0,924 dəfə olub. Bu göstəricilər əvvəlki illərlə müqayisədə həm müddət, həm də say baxımından aşağıdır. Bunun başlıca səbəbi son illərdə Bakı şəhərini paylayıcı şəbəkəsində olan 110 və 35 kV-luq yarımstansiyaların tikilərək tam yenidən qurulması, paytaxtın demək 90 faizindən artıq ərazisində yeraltı kabelləşmə işinin həyata keçirilməsi, dairəvi elektrik təchizat sxemlərinin yaradılması və şəbəkələrin əks-qəza avtomatikasına qoşulmasıdır.

“Elektroenergetika haqqında” Azərbaycan Respublikası Qanununa əsasən, tikinti obyektinin qoşulduğu ötürücü və ya paylayıcı şəbəkədən asılı olaraq məişət istehlakçıları üçün sayğaclar müvafiq olaraq ötürücü və ya paylayıcı sistem operatorunun vəsaiti hesabına, qeyri-məişət istehlakçıları üçün isə sayğaclar istehlakçının vəsaiti hesabına müvafiq olaraq ötürücü və ya paylayıcı sistem operatoru tərəfindən təchiz edilir, quraşdırılır və dəyişdirilir.

Bu mövzuda daha ətraflı məlumatla Biznes mühitinin müxtəlif sahələrinin tənzimlənməsi çərçivələri və elektron xidmətlər barədə İcmal sənədində (səhifə 2–3) tanış ola bilərsiniz.

Qeyd edək ki, Azərbaycan Respublikasının Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyasının Elektrik təchizatı şəbəkələrinə qoşulma işçi qrupuna Azərbaycan Respublikasının Energetika Nazirliyi rəhbərlik edir (https://azranking.az/working-groups).

**Mənbə:**

https://azertag.az/xeber/biznes_muhitinin_muxtelif_sahelerine_dair_icmal_hazirlanib-3344079

### Digər saytlar və portallar

1. https://www.musavat.com/news/biznes-muhitinin-muxtelif-sahelerine-dair-icmal-hazirlanib_1130688.html

**“Ekoloji, sosial və korporativ idarəetmə (ESG) standartları” üzrə altqrupun fəaliyyəti**

**23.12.2024**

**azertag.az**

**Orxan Məmmədov: ESG prinsipləri müxtəlif aspektlər baxımından bizneslər üçün çox əhəmiyyətlidir**



Ətraf mühit, sosial və korporativ idarəetmə - qısaca desək, ESG yanaşması son dövrlərdə kifayət qədər geniş hərəkata çevrilib. ESG prinsipləri müxtəlif aspektlər baxımından bizneslər üçün çox əhəmiyyətlidir.
AZƏRTAC xəbər verir ki, bunu KOBİA İdarə Heyətinin sədri Orxan Məmmədov Bakıda keçirilən “Əmək münasibətləri, əməyin mühafizəsi və insan resursları ekoloji, sosial və korporativ idarəetmə yanaşmasının əsas istiqamətlərindən biri kimi” mövzusunda konfransda deyib.
Onun sözlərinə görə, ESG meyarlara riayət edilməsi müəssisələrin rəqabət qabiliyyətinin və ixrac potensialının artırılmasına, eləcə də xarici investisiyaların cəlb edilməsinə imkan verir: "ESG yanaşmasının əsas elementlərindən biri sosial məsələlərdir ki, bu da əmək münasibətləri və insan resurslarını da əhatə edir. Bu baxımdan, ESG-nin tətbiqi işçilərin iş yerində saxlanılmasına, məhsuldarlığın yüksəldilməsinə və istedadların işə cəlb edilməsinə imkan verir. Araşdırmalar göstərir ki, dayanıqlı və sosial məsuliyyət məsələlərinə diqqət yetirən şirkət işçilər üçün arzuolunan iş yeri hesab edilir".

Ekoloji, sosial və korporativ idarəetmə (ESG) prinsiplərinin tətbiqinin stimullaşdırılması və təşviqi üzrə 2024-cü il üçün Yol Xəritəsi 27.03.2024-cü ildə təsdiq olunub.

O.Məmmədov qeyd edib ki, KOBİA ESG prinsiplərinin təşviqində yaxından iştirak edir. Belə ki, təqribən 2 il bundan əvvəl Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyanın tərkibində KOBİA tərəfindən rəhbərlik edilən ESG standartları üzrə altqrup yaradılıb: "Alt qrupda dövlət, özəl və ictimai təşkilatların 25-dən artıq nümayəndəsi təmsil olunur. Həmin dövrə qədər, xüsusilə özəl sektor və ictimai təşkilatlar səviyyəsində ESG ilə bağlı təşəbbüslər edilirdi. Lakin onlar fərdi xarakter daşıyır və kütləviliyin artırılmasına gətirib çıxara bilmirdi. ESG üzrə alt qrupun yaradılması isə bu boşluğu aradan qaldırmaqla daha sistemli və əhatəli yanaşmanın tətbiqinə, ən əsası dövlət və özəl sektorun səylərinin birləşdirilməsinə imkan verdi".
O bildirib ki, ötən 2 il müddətində ESG altqrupu çərçivəsində bir sıra işlər görülüb: "Ölkəmizdə ESG prinsiplərinin tətbiqinin stimullaşdırılması və təşviq edilməsi ilə bağlı ortamüddətli dövr üçün strateji baxış müəyyən edilib. Sözügedən sənəddən irəli gələrək, 2023-cü və 2024-cü illər üçün Yol xəritələri hazırlanıb. 2023-cü ildə qrup çərçivəsində fəaliyyətimiz - daha çox mövcud vəziyyətin araşdırılması, mütərəqqi beynəlxalq təcrübənin öyrənilməsi, boşluqların müəyyən edilməsi və onların aradan qaldırılması istiqamətində təkliflərin formalaşdırılması ilə bağlı olub. ESG standartları üzrə altqrup çərçivəsində 2023-cü il üzrə Yol Xəritəsinin icrası üzrə ərsəyə gəlmiş materiallar, arayış və hesabatlar toplanaraq məcmuə halında ümumiləşdirilmiş və tərəfimizdən çap edilərək maraqlı tərəflər arasında paylanıb. 2024-cü ildə fəaliyyətimiz çərçivəsində ötən ay "Ətraf mühit, sosial və korporativ idarəetmə" prinsipləri ilə bağlı çərçivə dövlət standartı təsdiq edilmiş və ESG üzrə vahid elektron platforma hazırlanıb".

**Mənbə:**

Ekoloji, sosial və korporativ idarəetmə (ESG) prinsiplərinin tətbiqinin stimullaşdırılması və təşviqi üzrə 2024-cü il üçün Yol Xəritəsi 27.03.2024-cü ildə təsdiq olunub.

https://azertag.az/xeber/orxan_memmedov_esg_prinsipleri_muxtelif_aspektler_baximindan_biznesler_uchun_chox_ehemiyyetlidir-3344203

## Digər saytlar və portallar

1. https://report.az/biznes-xeberleri/kobia-esg-prinsipleri-muxtelif-aspektlerde-biznes-ucun-cox-ehemiyyetlidir/
2. https://sia.az/az/news/economy/1216230.html

3. https://baku.ws/social/kobia-esg-prinsipleri-muxtelif-aspektlerde-biznes-ucun-cox-ehemiyyetlidir
4. https://missiya.az/86660-kobia-esg-prinsipleri-muxtelif-aspektlerde-biznes-ucun-cox-ehemiyyetlidir.html
5. https://ikisahil.az/post/kobia-esgprinsipleri-muxtelif-aspektlerde-biznesuchun-chox-ehemiyyetlidir
6. https://cebheinfo.az/iqtisadiyyat/kobia-esg-prinsipleri-muxtelif-aspektlerde-biznes-ucun-cox-ehemiyyetlidir_620

Ekoloji, sosial və korporativ idarəetmə (ESG) prinsiplərinin tətbiqinin stimullaşdırılması və təşviqi üzrə 2024-cü il üçün Yol Xəritəsi 27.03.2024-cü ildə təsdiq olunub.